**Azərbaycan Dövlət pedaqoji Universiteti ilə ABŞ-ın Corc Vaşinqton Universitetinin ikili diplom proqramı**

**2019-2023-cü illər Dövlət Proqramı çərçivəsində icra olunur**

İnsan Kapitalının İnkişafı Məqsədli Dövlət Proqramları 2007-2015, 2019-2023

**Təhsil siyasəti və idarəetməsi ixtisası üzrə**
(*Təhsil proqramının adı*)

**Təhsil proqramının akkreditasiyası üzrə özünütəhlilin nəticələri haqqında**

# HESABAT

**ADPU-nun**
**Elmi Şurasının**
**(8/12/2023) tarixli iclasının qərarı ilə**
**təsdiq edilmişdir.**

**Tarix 8 dekabr 2023-cü il**

**İmza____________________**

**prof. Cəfər Cəfərov**

**2023-cü il**

**Mündəricat**

**I. Giriş**

1. Təhsil proqramına dair ümumi məlumatlar
2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki

**II. Təhsil proqramının özünütəhlili**

3. Özünütəhlil qiymətləndirilməsinin icmalı
4. Təhsil proqramının özünütəhlil nəticələri
5. Təşkilati komissiyanın gəldiyi nəticələr və qeydlər

**III. Özünütəhlil Hesabatına əlavə olunan sənədlər**

# I. Giriş

## 1. Təhsil proqramına dair ümumi məlumatlar

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə ABŞ-ın Corc Vaşinqton Universitetinin İkili diplom proqramı |
| Təhsil səviyyəsi | Magistratura |
| Təhsil Proqramının şifri və adı<br>- Ixtisaslaşmanın adı | ABŞ-ın Corc Vaşinqton Universitetinin Təhsil və İnsan İnkişafı Məktəbi ilə birgə ikili diplom proqramı<br><br>- CVU tərəfindən təqdim edilən ixtisas: Təhsil və insan inkişafı<br><br>- ADPU tərəfindən təqdim edilən ixtisas: 060407 – Menecment (*təhsilin təşkili və idarə olunması)* |
| Sonuncu proqram akkreditasiyasına dair şəhadətnamənin verilmə tarixi və müddəti | Olmayıb |
| Təhsil müəssisəsinin rəhbəri | Professor Cəfər Cəfərov |
| Fakültənin adı | ADPU-CVU ikili diplom proqramı |
| Təhsil proqramının təhkim olunduğu kafedra(lar) sayı | Yoxdur. Təhsil proqram direktorluğu tərəfindən idarə olunur. |
| Təhsil proqramı üzrə təhsilalan kontingenti | **Təhsilalan sayı**<br>Magistratura: 81 *(d/s 4 və ö/ə 77) - bununla bağlı həll edilməmiş aspektlər var!* |
| Təhsil proqramı üzrə hər bir təhsilalana düşən illik təhsil xərclərinin miqdarı (manatla) | Magistratura:<br>D/S:<br>Ö/Ə: 2000 manat (ADPU)<br>CVU təhsil haqqını və inzibati xərclər dövlət proqramı çərçivəsində Neft Fondu tərəfindən ödənilir. |
| Təhsil proqramı üzrə təlim və tədris prosesinə cəlb edilmiş ştatdakı professor-müəllim (və ya pedaqoji) heyətinin sayı | 1 (ADPU), 6 (CVU) |
| Təhsil proqramı üzrə əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | Əvəzçilik:<br>Saathesabı: 7 (ADPU), 2 (CVU) |
| Təhsil müəssisənin elektron ünvanı və əlaqə telefonu | office@adpu.edu.az |
| Təhsil müəssisənin hüquqi ünvanı | Üzeyir Hacıbəyli, 68, Bakı, Səbail, AZ1000 |
| Təhsil müəssisənin faktiki ünvanı | Fətəli xan Xoyski 109, ARTİ-nin Təhsil Texnologiyaları Mərkəzi |

## 2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki

Təşkilat komissiyasının tərkibi

| № | A.S.A | Vəzifə | E-mail ünvanı |
|---|---|---|---|
| 1 | Tofiq Əhmədov | Proqramının baş direktoru (sədr) | tofiq.ahmadov@adpu.edu.az |
| 2 | Ümid Mehdiyev | Rektorun müşaviri | umid.mehdiyev@adpu.edu.az |
| 3 | Qalib Şərifov | Keyfiyyətin təminatı şöbəsinin müdiri | qalib.sharifov@adpu.edu.az |
| 4 | Nərgiz Mehdiyeva | Proqramının katibi | nargiz.mehdiyeva@adpu.edu.az |
| 5 | Elmina Kazımzadə | Proqramının müəllimi | elmina.kazimzade.gw21@adpu.edu.az |
| 6 | Faina Qaçabəyova | Proqramının məzunu | faina.qachabeyova.gw21@adpu.edu.az |
| 7 | Orxan Cəfərov | Proqramının məzunu | orxan.ceferov.gw21@adpu.edu.az |
| 8 | Leyla Həmidova | Proqramının tələbəsi | leyla.hamidova1@adpu.edu.az |
| 9 | Cavid Axundov | Proqramının tələbəsi | cavid.axundov@adpu.edu.az |

Təşkilat komissiyasının fəaliyyət qrafiki

| Komissiyanın üzvü | Fəaliyyət |
|---|---|
| Tofiq Əhmədov | Hesabatının hazırlanması, təhlilinin aparılması, ilkin layihənin təqdim edilməsi, rəylərin toplanması və yekun hesabatın hazırlanması |
| Ümid Mehdiyev | Hesabatının təkmilləşdirilməsinə dair rəylərin verilməsi |
| Qalib Şərifov | Hesabatının təkmilləşdirilməsinə dair rəylərin verilməsi |
| Nərgiz Mehdiyeva | Hesabatının yazılmasında iştirak və əlavə formaların hazırlanması |
| Elmina Kazımzadə | Hesabatının dair rəylərin verilməsi |
| Faina Qaçabəyova | Hesabatının dair rəylərin verilməsi |
| Orxan Cəfərov | Hesabatının dair rəylərin verilməsi |
| Leyla Həmidova | Hesabatının dair rəylərin verilməsi |
| Cavid Axundov | Hesabatının dair rəylərin verilməsi |

## II. Təhsil proqramının özünütəhlili

### 3. Özünütəhlil qiymətləndirməsinin icmalı

Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (bundan sonra – Agentlik) 01-02/524 nömrəli 30 oktyabr tarixli əmri ilə təsdiqlənmiş metodologiyaya əsaslanaraq qiymətləndirilmişdir. Özünütəhlilin məqsədi təhsil proqramlarının davamlı olaraq təkmilləşdirilməsini, daxili keyfiyyət təminatının qiymətləndirilməsini təmin etmək və ictimaiyyəti təhsilin keyfiyyəti barədə məlumatlandırmaqdır. Təhsil proqramının özünütəhlili Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi Şurasının 8 dekabr 2023-cü il tarixli iclas qərarı ilə təsdiqlənmiş Təşkilat Komissiyası tərəfindən aparılmışdır. Təşkilat Komissiyasının meyarlar üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir:

## 1. Təhsil proqramı üzrə təhsilalanların qəbulu

1.1. Təhsil proqramı üzrə tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti ilə bağlı qeyd etmək istərdik ki, bu ikili diplom proqramı Azərbaycan Respublikası Prezidntinin "2019-2023-cü illərdə Azərbaycan ali təhsilinin rəqabət qabiliyyətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində həyata keçirildiyi üçün tədris illəri üzrə tələbə qəbulunun sayı da öncədən müəyyənləşdirilmişdir. Hazırda Proqram üzrə təhsil alan tələbələrin yaş aralığı 21-55-dir. Bu da o deməkdir ki, proqramda təhsil alan tələbələr arasında artıq təhsil sahəsində uzun illik təcrübəsi olan müəllimlər var.

1.2. Təhsil proqramı üzrə ATM-də əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti ilə bağlı qeyd etmək istərdik ki, yuxarıda da qeyd etdiyimiz ki, bu ikili diplom proqramı Dövlət Proqramı çərçivəsində iki universitet arasında bağlanan müqavilə əsasında həyata keçirildiyi üçün illər üzrə qəbul edilən tələbə sayı da bu müqavilə çərçivəsində razılaşdırılmışdır. Bu bazan Elm və Təhsil Nazirliyinin və Azərbaycan təhsil sisteminin təhsil siyasəti və idarəetməsi ixtisası üzrə ehtiyacları da nəzərə alınmışdır. Proqram Dövlət Neft Fondu tərəfindən maliyyəlşdirildiyi üçün onun maliyyəşmə imkanları da tələbə qəbulunun planlaşdırılmasında nəzərə alınmışdır. Bu baxımdan, tələbə qəbulu prosesində öncədən illər üzrə sifarişlər qabaqcadan planlaşdırılmışdır.

1.3. Təhsil proqramı üzrə tələbə qəbulu sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyəti ilə bağlı qeyd etmək istərdik ki, yuxarıda da qeyd etdiyimiz kimi, tələblərin hamısı artıq proqrama daxil olarkən Təhsil sahəsində və digər müvafiq sahələr üzrə çalışdıqları üçün bu proqramı seçərkən daha öz karyeralarının inkişaf etdirməsi, professional bacarıqlarının artırılmasının və məzun olduqdan sonra təhsil siyasətində əhəmiyyətli dəyişikliklərdə iştirak etməyi hədəfləyirlər. Tələbə qəbulu sifarişlərinin formalaşmasında ADPU ilə yanaşı ETN, Təhsil İnstitutu da çıxış etdiyindən. Onlar həm də işəgötürən kimi çıxış edirlər, sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı da təmin edilmiş olur. Bundan əlavə, bu proqram üzrə kurikulum (təhsil proqramı) hazırlanarkən rəhbər komitə tərəfindən Məzun profili (ing. Graduare Learner Profile) adlı sənəd hazırlanmışdır. Bu sənəd, tələbələrə aşılamalı olan bilik və bacarıqları modullar üzrə təyin etməyə, eləcə də məzunların gələcəkdən çalışa beləcək mümkün sahələri müəyyənləşdirmək üçün imkan yaradır.

1.4. Əlavə olaraq qeyd etmək istərdik ki, bu təhsil proqramı ikili diplom proqramı olduğu üçün burada ikili qəbul prosesi həyata keçirilir. Ərizəçilər DİM magistratura imtahanı verməklə yanaşı, tərəfdaş CVU-nun qəbul qaydalarını da nəzərdə tutulan tələbləri yerinə yetirməlidirlər. Bunun üçün ərizəçilər ərizə formanı doldurur, minimum 750 sözlük motivasiya məktubu (statement of purpose) yazır, tövsiyə məktubu əlavə edir. Bundan əlavə ərizəçilər minimum İELTS 7.0 yaxud Duolingo 120 bal ingilis dili nəticəsi təqdim etməlidirlər. Sonradan təqdim edilən sənədlər tərəfdaş universitetə qiymətləndirilmək üçün təqdim edilir. Son iki ildə bütün sənəd qəbulu prosesi online formatda keçirilmişdir. Birinci mərhələdə sənədlərin qiymətləndirilməsindən sonra uğurlu namizədlər müsahibə mərhəsinə dəvət olunurlar. Müsahibədə ən uğurlu olan namizədlər müqavilə üzrə müəyyən edilmiş kvota əsasında proqrama qəbul alırlar. CVU tərəfindən təqdim edilmiş siyahı təsdiq üçün Elm və Təhsil Nazirliyinə göndərilir. Tələbə və məzunlar belə hesab edir ki, yekun olaraq tələbələrin seçilməsinin son mərhələsində, yəni müsahibələrdə ADPU nümayəndələrinin də iştirakı məqsədəuyğundur.

Bu meyar üzrə təhsil proqramının nəticələrinin təhlili ona deməyə əsas verir ki, ikili qəbul prosesinin həyata keçirilməsi DİM-də qiymətləndirilən bacarıqlarla yanaşı tələblərdən motivasiya məktunun istənilməsi, ərizələrini dəstəkləyən məktubun tələb olunması, dil

sertifikatı və qiymət kitabçası ilə yanaşı CV göstəricirilərinin qiymətləndirilməsi, həmçinin ikinci mərhələdə onlarla müsahibələrin aparılması tələbə seçiminin güclü tərəflərini göstərir. Digər güclü tərəf yalnız DİM magistratura balını əsas götürməməklə ərizəçilər arasında gender, regional təmsilçilik, yaş və təcrübə, eləcə də maraq göstərdikləri təhsil sahələri (məktəbəqədər, orta ixtisas, peşə, ali təhsil pilləri, özəl və ya dövlət qurumları və s.) kateqoriyalarına da seçim prosesində diqqət etməkdir.

Bu meyar üzrə proqramın inkişaf etdirilməyə ehtiyacı olan tərəfi proqrama daxil olan tələbələrin göstəricilərinin bəzən bir-birlərindən çox fərqlənməsidir. Bu özünü tədris prosesində də göstərir. Güclü tələbələr daha çox çalışmaq istədikləri halda zəif tələbələr proqramın çox ağırlıqlı və intensiv olduğundan şikayət edirlər. Bu baxımdan Proqramda oxuyan tələbə və məzunlar belə hesab edirlər ki, proqrama qəbul zamanı bəzi tələbələrin təcrübə azlığı proqram effektivliyinə təsir edir.

## 2. Təhsil proqramları üzrə əvvəlki kvalifikasiyaların tanınması

2.1. Tanınmış kvalifikasiyanın aid olduğu təhsil səviyyəsinin düzgün müəyyən edilməsi ilə bağlı qeyd etmək istərdik ki, bu ixtisas üzrə təhsil alan tələbələrin əksəriyyəti humanitar və sosial elmlər sahəsi üzrə bakalavr təhsilinə malik olan şəxslər olur. Bu baxımdan statistika yönümlü fənlərin tədrisində aşağı səviyyədən başlamalı oluruq. Bu zaman öncəki tədris pilləsində statistika fənnini götürmüş tələbələrdən bu müraciətlər daxil olduqda müəlimin rəyi əsasında onların bəzi tapşırıqların icrasından azad edilməsi, lakin yekun qiymətləndirmə üçün əsas araşdırma və tədqiqat işlərini təqdim etməsi istənilir. İndiyədək edilmiş 2 müraciətə baxılaraq müsbət cavablandırılmışdır. Bunlar “statistika və riyaziyyat” fənni ilə bağlı müraciətlər olmuşdur.

2.2. Tanınmış kvalifikasiya üzrə əldə olunmuş təlimin (tamamlanmış kreditlərin) həcminin düzgün müəyyən edilməsi ilə bağlı qeyd etmək istərdik ki, proqramın tətbiqi müddətində belə bir müraciət olmamışdır.

2.3. Tanınmış kvalifikasiyaya dair sənədin autentik (həqiqi) olması ilə bağlı qeyd etmək istərdik ki, Proqrama qəbul zamanı tələbələrin transkripləri CVU tərəfindən qiymətləndirilir. CVU tərəfindən müsahibə edilərkən tələbələrin öncəki təhsil pilləsində qazandığı kvalifikasiyaların dəyərləndirilməsi də həyata keçirilmiş olur.

Bu meyar üzrə proqramın güclü tərəfi tələbələrin əvvəllər əldə etdikləri kvalifikasiyalarının tanınması sahəsində müasir yanaşmaların tətbiqi imkanlarının olmasıdır. Bu istiqamətdə tələbələrə fərdi yanaşılmağa çalışılır.

Bu meyar üzrə proqramın inkişaf etdirilməyə ehtiyacı olan tərəfi olaraq tələbə və məzunlar hesab edirlər ki, rüblük olaraq proqramla bağlı təəssüratlarını bölüşmək istəyən tələbələrlə görüşlər təşkil etmək təklif olunur. Bu, dərslərin sonunda tələbələr arasında anonim şəkildə keçirilən sorğuya produktiv əlavə olardı. Başqa bir məsələ odur ki, tələbələrin fikrincə çox maraqlı olan tədris səfərləri təşkil edilərkən, çoxları gəlmək istədiyi, lakin işdən icazə ala bilməyən tələbələrin də iş vaxtını nəzərə alınması xahiş olunmuşdu.

Bundan əlavə onlar təklif edirlər ki, inkişaf etdirilə bilən məqamlardan biri tələbələrin qəbulu zamanı son 3 ildə bakalavr təhsillərini ingilis dilində almış şəxslərin qəbul zamanı dil imtahanından (IELTS/duolingo) azad edilməsi ola bilər.

## 3. Təhsil proqramı üzrə tədrisin təşkili

Təhsil Proqramı üzrə tədrisin təşkili və idarə olunması ADPU ilə CVU arasında bağlanan müqavilə əsasında tənzimlənir, dərslər modul formasında tədris olunur. Müqaviləyə əsasən CVU professor-müəllim heyəti Azərbaycana yalnız iki həftəlik müddətdə səfər etdikləri üçün dərslər adətən həftədə 4 yaxud 5 dəfə keçirilməklə təşkil olunur. Adətən CVU-da keçirilən fənlərdən öncə dərslərə hazırlıq üçün bir həftə hazırlıq (pre-reading/preparartion) müddəti üçün zaman verilir. CVU dərsləri bitdikdən sonra da həmin fənn üzrə tapşırıqların icra edilməsi üçün bir həftəlik zaman verilir ki, tələbələr tədqiqatlarını tamamlaya bilsinlər. CVU professorlarının dərs cədvəlinə uyğun olaraq ADPU tərəfdən dərslərin planlaşdırılması və keçirilməsi təmin olunur. Bir qayda olaraq dərslər həftə içi 19:00-22:00 aralığında Təhsil İnstitutunun Təhsil Texnologiyaları Mərkəzində (Fətəli Xan Xoyski 109) keçirilir.

Proqramda təlim aparan müəllim heyəti dünyanın aparıcı təhsil müəssisələrində təhsil alan elm və təhsil sahəsinin müxtəlif aspektlərində məsul vəzifələrdə çalışan şəxslər olduğu üçün tədrisin təşkilində və idarə olunmasında müasir təcrübələrin tətbiqinə imkan yaradılır. Tələbələr CVU-da tədris təşkilində müəllimlərin sərbəstliyini və akademik azadlığını görərək yerli müəllimlərdən də eyni performansı gözlədiyi üçün təlim prosesində müəllimlərin təlim strategiyasında və fənlərin tədrisinin dizayn olunmasında mümkün sərbəstliyi və yaradıcılıq imkanı təmin edilmiş olur. Bu baxımdan əsas hədəf ADPU tərəfdən tədris olunan fənlərin standartlarının CVU standartlarına çatdırılmasıdır. Halbuki tələbələrin əksəriyyətinin ümumi bir rəyi belədir ki, ADPU-da yerli müəllimlərin dərsləri CVU dərslərindən heç də zəif keçmir, əksinə bir çox halda onları üstələyir.

Tədrisin təşkilində ən ciddi və narahatlıq doğuran məqamlardan biri də budur ki, tələbələrin bir çoxu bakalavr təhsilləri müddətində akademik yazı və tədqiqat bacarıqları qazanmadığı üçün xüsusən ilk tədris ilində müəllimlər də, tələbələr də ciddi çətinlik çəkmiş olurlar. Bu baxımdan proqramda oxumağın çoxları üçün asan olmadığını deyirlər. Xüsusən proqramda təhsil alan tələbələrin demək olar ki, hamısının tam ştatda çalışması onların gərgin iş qrafikindən sonra intensiv tədris prosesdə tam enerji ilə çalışması elə də asan olmur. Bu baxımdan bəzi tələbələr tapşırıqların çoxluğundan, onları icra etməklə bağlı kifayət qədər zaman qazanmadığından şikayətlənə bilirlər. Tələbə kontingentinin müxtəlifliyi bu işi daha da çətinləşdirir. Bəziləri tədris proqramını asanlıqla mənimsədiyi halda, digərləri bunu çətinliklə edir.

Proqramda tədris prosesi mütəmadi olaraq monitorinq edilir. Bu dərslərin yaxından müşahidə edilməsi, tələbələrlə demək olar ki, hər dərs ünsiyyətdə olmaq, performansın dəyərləndirilməsi, müəllimlərlə sürəkli əks əlaqə imkanları hər bir tələbə ilə bağlı məlumatlar toplamağa imkan verir.

Bu meyarın indikatorları üzrə cavablar:

3.1.Təhsil proqramı üzrə tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilmişdir. Bu proqram tərəfdaş Amerika universiteti ilə birgə təşkil edildiyi üçün bir sıra özünəməxsus cəhətlərə malikdir. Seçmə fənlərin olmaması, tədris proqramının sonunda dövlət buraxılış

imtahanının olmaması və proqramın CVU-nun müəyyən etdiyi capstone layihəsi ilə tamamlanması təcrübəsi tətbiq edilir.

3.2. Təhsil proqramı üzrə ixtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafiki Elm və Təhsil Nazirliyinin göstərişi ilə Təhsil İnstitutu tərəfindən hazırlanmışdır. Daha sonra icra edilmək üçün ADPU-nun Elmi Şurası tərəfindən təsdiq edilmişdir.

3.3. Təhsil proqramı üzrə tədris planında məcburi və seçmə fənlərin bölgüsünün aparılması ilə bağlı qeyd etmək istərdik ki, tədris planı elə tərtib edilmişdir ki, proqramda fənlərin tədrisi üçün bu kimi imkanlar mövcud deyil. Proqrama qəbul olunan tələbə sayının məhdudluğu, proqramın Neft Fondu tərəfindən maliyyələşdirmə şərtləri bu kimi sərbəstliyinin tətbiq edilməsinə imkan yaratmır. Buna baxmayaraq bəzən tələbələr tərəfindən onlara daha çox seçim imkanının verilməsi, yəni maraq göstərdikləri sahələrə uyğun olaraq seçmə fənlərin salınması və həmin fənlərin tələbələr tərəfindən müəyyənləşdirilməsi hüququnun tanınmasını istənilir.

3.4. Təhsil proqramı üzrə tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti ilə qeyd etmək lazımdır ki, tədris planında nəzərdə tutulan bütün fənlər birbaşa ixtisas fənləri olduğu üçün burada ümumi və ixtisas fənləri bölgüsü mövcud deyil.

3.5. Təhsil proqramı üzrə fənlərin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti dair meyara uyğun olaraq qeyd etmək istərdik ki, fənlərin təlim nəticələri və keçirilən mövzuların uyğunluğu arasında koordinasiyanın təmin edilməsi məqsədi ilə fənn müəllimləri arasında ünsiyyətin yaradılması, əməkdaşlıq mühitinin təmin edilməsi nəticəsində fənlərin davamlılığı təmin edilməklə yanaşı mümkün təkrarlara yol verilməsinin qarşı alınır, fərqli bacarıqların inkişafına nail olunur. Milli proqramlardan fərqli olaraq burada çox geniş spektrli ixtisas kompetensiyaların qazanılması təmin edilir.

3.6. Təhsil proqramı üzrə fənlərin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması və buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti ilə bağlı qeyd etmək istərdik ki, sillabuslarda əksini tapan təlim nəticələri və onlara fənlərin tədrisi zamanı nail olunması üçün mühüm hazırlıqlar həyata keçirilir. Hər semestrinin sonunda fənləri tədris edən müəllimlərlə, eləcə də fənnin tədris olunduğu qruplarda təhsilalan tələbələrlə müzakirənin nəticəsi olaraq sillabusa əlavələr edilir, onun təkmilləşdirilməsi üçün zəruri işlər həyata keçirilir. Bu istiqamətdə müəllimlərlə proqram rəhbərliyi arasında faydalı kommunikasiya və əməkdaşlıq imkanları effektiv şəkildə təmin olunur.

3.7. Təhsil proqramı üzrə tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyəti ilə bağlı qeyd etmək istərdik ki, proqram üzrə dərs cədvəli imkan verdikcə tələbələrin dərs yükünün sıxlığı nəzərə alınır. Adətən ADPU dərsləri həftə ərzində 2-3 həftə keçdirildiyindən bu onlara dərsdən kənar məşğələlərə qatılmaq imkanı qazandırır. CVU dərsləri isə 2 həftə ərzində 4-5 dəfə keçirilir. Bu da tam ştatda (full time) çalışan tələblər üçün müəyyən gərginliklər yaradır. Tələbərin CVU dərslərinin 40 nəfərlik tələbə heyəti ilə bir qrupda təşkil olunmasını da effektiv hesab etmirlər.

3.8. Təhsil proqramı üzrə tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planı ilə bağlı qeyd etmək istərdik ki, təhsil proqramında tələbələrin fərdi seçim imkanı üçün şərait olmadığı üçün onların fərdi planları da ümumi mahiyyət kəsb edir.

3.9. İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planın mövcud olması vəziyyətinə dair qeyd etmək istərdik ki, bu ikili diplom proqramından irəli gələn bir sıra spesifik hallar bu kimi tələblərin proqramda icra olunmasını mümkünsüz edir.

3.10. Təhsil proqramı üzrə müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planın mövcud olması vəziyyəti ilə bağlı qeyd etmək istərdik ki, proqrama cəlb edilən müəllimlər saat hesabı əsasda çalışdıqları üçün onların dərs bölgüsü tədris etdikləri fənlərin tədris planında olan yerinə uyğun olaraq aparılır. Dərs yükü kifayət qədər olmadığı üçün müəllim heyəti proqrama yalnız saat hesabı əsasda cəlb oluna bilir.

3.11. Təhsil proqramında tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (Mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti). İkili diplom proqramında adətən fənlərin hətta formal olaraq qeyd edilən tədris növlərinə bölgüsü həyata keçirilmir, əksinə hər bir dərsdə interaktivlik təmin edilməklə tədris növləri sintez halında birgə tətbiq edilir.

3.12. Təhsil proqramı üzrə məsləhət xidmətinin təşkili ilə bağlı onu qeyd etmək lazımdır ki, proqramda təhsil alan hər bir tələbə ilə fərdi səviyyədə iş aparılır. Hər bir qrupla bağlı aktiv vatsap qrupu olduğundan tələblər həm fərdi, həm də qrup işi aparmaq imkanları genişdir. Hər bir fənni tədris edən müəllimdən tələb olunan şərtlərdən biri də məsləhət saatlarının olmasıdır. Bundan əlavə, tələbələr həm öncədən yazılmaqla, həm də birbaşa olaraq proqram baş direktoru ilə görüşmək imkanına malikdirlər.

3.13. Təhsil proqramına uyğun müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti ilə qeyd etmək istərdik ki, ADPU tərəfindən tədris olunan fənlər çərçivəsində tələbələrin sərbəst işlərinin icrası tədris hissəsinin mühüm tərkib hissəsidir. Bir çox milli proqramlarda olduğundan fərqli olaraq bu formal deyil, fənn üzrə tapşırıqların əsas hissəsini təşkil edir.

3.14. Təhsil proqramı üzrə təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili CVU ilə birgə ADPU-nun da tələbləri nəzərə alınaraq stajkeçmə zamanı təhsilalanların maraqlarına uyğun təhsil müəssisələrinlərində onların stajkeçməsinə dəstək göstərilir. Proqramda təhsil alan tələbələrin böyük əksəriyyətinin təhsil sahəsində uzun illər təcrübədə olmaları onların iş mühiti ilə bağlı zəruri məlumatlara, bilik və bacarıqlara malik olması bu sahədə işlərin daha yaxşı təşkil olunmasına imkan yaradır. Bundan əlavə, proqramın həyata keçirilməsi zamanı sahə mütəxəsissləri ilə keçirilən mütəmadi görüşlər, dərslərə ekspertlərin dəvət olunması, eləcə də sahə səfərlərinin təşkil olunması təhsilalanların ixtisasları ilə bağlı bilik və bacarıqlarının təkmilləşdirilməsinə imkan yaradır.

3.15. Təhsil proqramı üzrə stajkeçmənin təşkili ilə bağlı deyə bilərik ki, proqramda təhsil alan tələbələr eyni zamanda tam ştatda mütəxəssis olaraq müxtəlif tədris müəssisələrində, Elm və Təhsil Nazirliyinin tabeliyindəki strukturlarda və digər müəssisələrdə çalışdıqları üçün ikili diplom proqramında təhsil aldıqları müddətdə stajkeçmiş, təcrübə qazanmış olurlar. Bu bir tərəfdən onlara əlavə üstünlük qazandırır ki, tədris prosesində öyrəndiklərini praktika ilə əlaqələndirmiş olurlar, təcrübədə öyrəndiklərini tədris prosesində dəyərləndirə, təhlil edə bilirlər. Lakin digər tərəfdən, gərgin iş qrafiki bir çox halda dərslərdə tam enerji ilə iştirak etməkdə çətinliklər yaradır. Dərsləri və tapşırıqları çatdırmaqda sistematik gərginlik və

narahatlıq yaşayanlar da az olmur. Bu baxımdan proqramda təhsil alan tələbələrin oxuduqları müddətdə çalışmalarının həm üstünlüyü, həm də çatışmazlıqları vardır.

3.16. Təhsil proqramı üzrə kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işinin təşkili vəziyyəti ilə bağlı qeyd etmək istərdik ki, ikili diplom proqramı intensiv tədqiqat yönlü (*research intensive cources*) olduğu üçün hər fənn daxilində tələbələrin tədqiqatlarına diqqət yetirilir. Ənənəvi təhsil proqramlarında olan standart kurs layihəsi əvəzinə müəllimlər fənnin spesifikasından asılı olaraq araşdırma və tədqiqat mövzuları verirlər. Tələbələr bu tapşırıqların bəzilərini fərdi, bəzilərini isə qrup şəklində icra edirlər.

3.17. Təhsil proqramına uyğun buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili vəziyyətinə dair qeyd etmək istərdik ki, bu ikili diplom proqramı daha çox fənlərin tədrisi tədqiqat yönlü (*research intensive cources*) istiqamətində təşkil edildiyi üçün proqramın sonunda magistr dissertasiyasının yazılması nəzərdə tutulmamışdır. Proqram iyirmi fənnin tədrisi üzərində təşkil edilmişdir. On fənn CVU, on fənn də ADPU tərəfindən tədris olunur. Hər fənn çərçivəsində tələbələr həm fərdi həm də qrup halında tədqiqat layihələri icra edirlər. Bu proqramın sonunda isə, iki universitet arasında bağlanan müqaviləyə əsasən, *capstone layihəsi* təqdim edilir. Capstone layihəsinin icrası CVU tərəfindən həyata keçirilir. Bu zaman tələbələrin seçilmiş mövzuda akademik ədəbiyyatın təhlilinin aparılması (*literature review*) tələb olunur.

3.18. Təhsil proqramı üzrə imtahan sessiyasının təşkili tərəfdaş CVU-nun və müasir təlim və tədris prinsiplərinə uyğun olaraq müəllimlərin akademik azadlığı və fənlərin spesifikasına uyğun olaraq təmin olunur. Fənlərin tədrisi modul tipli olduğu üçün proqramda imtahan cədvəli və imtahan sessiyası təmin olunmur. Adətən sonuncu dərs günü müəllimin sillabusda nəzərdə tutduğu yekun təqdimat forması ilə yekunlaşır. Yaxud müəllimin müəyyən etdiyi son təqdimetmə tarixi (deadline) üzrə tələbələr fənn üzrə öyrəndiklərini yekun təqdimat formasında hazırlayıb təqdim edirlər.

3.19. Təhsil proqramı üzrə yay semestrinin təşkili praktikası bu ikili diplom proqramında tətbiq edilməmişdir. Yay semestrində (iyul ayında) CVU proqramın tərkib hissəsi olaraq Dr. Scott Joftus tərəfindən tədris olunan İntroduction Program Evaluation fənni tədris olunur.

3.20. Təhsil proqramı üzrə kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası ilə bağlı qeyd etmək istərdik ki, 2022-2023-cü tədris ilində 4 tələbənin hərəsinin 1 fəndən, 2021-2022-ci ildə isə bir 1 tələbənin 2 fənn üzrə (1-i CVU tərəfindən, 1-si ADPU tərəfindən) kəsri olmuşdur. 2020-2021-ci ildə də 1 tələbənin 2 kəsri yaranmışdır (1-i CVU tərəfindən, 1-si ADPU tərəfindən). Sonuncu tələbənin CVU tərəfindən iki kəsri olduğu üçün proqramdan uzaqlaşdırılması ilə bağlı məktub daxil olmuşdur. CVU-nun daxili qaydalarına görə magistratura proqramında oxuyan tələbənin iki kəsr olduğu halda proqramdan uzaqlaşdırılması ilə bağlı məsələ qaldırıla bilər. Lakin Azərbaycan qanunvericiliyinə uyğun olaraq tələbənin kəsrə görə təhsildən uzaqlaşdırılması nəzərdən tutulmadığı üçün onun Azərbaycan dilli proqrama keçirilməsi ilə bağlı məsələ qaldırılmış, müvafiq icazənin alınması üçün Elm və Təhsil Nazirliyinə müraciət ünvanlanmışdır.

3.21 Təhsil proqramı üzrə kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikasına dair qeyd etmək istərdik ki, statistik göstəricilər baxımından 2020-2021, eləcə də 2021-2022-ci ildə bir tələbənin iki kəsri yaranmışdır. Sonuncu tədris ilində 2022-2023-cü ildə 4 tələbənin 2 fənn üzrə kəsrləri olmuşdiur. Onlardan 3-ü bir fənn (GWU, Advanced Statistics) üzrə olmuşdur. Tələbələrin bu fənnin tədrisi ilə bağlı narazılıqları olsa da tərəfdaş universitet onların bu fənn üzrə kəsrlərinin yaranmasının performansları ilə bağlı olduğunu qeyd etmişdir. Son iki qəbulda tələbələrin sayının çox olması gələcəkdə kəsr sayının çox ola bilmə ehtimalı bir qədər artırmış olur.

3.22. Təhsil proqramı üzrə tədris prosesində tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyətinə dair qeyd etmək istərdik ki, bu ikili diplom proqramında CVU tərəfinin tədris prosesi ilə bağlı daha sərbəst və geniş imkanlarına münasibətdə ADPU tərəfdən tədrisin təşkili və idarə olunmasının bir çox normalarla (yerli qanunvericiliklə) zərurəti baxımından məhdudiyyət yaradır. Lakin hesab edirik ki, professor-müəllim heyətinin beynəlxalq tədris və təlim təcrübəsinə malik olmaları onlara fənlərin tədrisinə daha yaradıcı yanaşmağa imkan yaradır.

Bu meyar üzrə proqramın güclü tərəfi tədrisin beynəlxalq təcrübəyə əsaslanaraq bilik və məlumat vermək deyil, daha çox bacarıq və kompetensiyaların formalaşdırılmasına çalışmasıdır. Tələbələr nəzəri biliklərlə paralel və daha çox sahə üzrə fərdi bacarıqlarının artırılmasına, dövrün və əmək bazarının tələəbləərinə uyğun mütəxəssis kimi hazırlanmasına diqqət yetirilir.

Bu meyar üzrə proqramın inkişaf etdirilməyə ehtiyacı olan tərəfi, tələbələ və məzunların rəyinə əsasən, təhsilalanların tədris prosesinə daha çox zaman ayırmaları üçün onların hansısa formada dəstəklənməsinə nail olmaqdır. Onlar belə hesab edirlər ki, Proqram rəhbərliyi tələbələrin şərhlərini qəbul etməyə həmişə açıqdır və həm universitet tərəfini, həm də tələbələri nəzərə alaraq çətinliklərin həlli yollarını tapmağa çalışır Çünki keçirilən sorğular bütün günü çalışan tələblərin dərsləri eləmək üçün kifayət qədər zamanı olmadığını göstərir. Tələbə və məzunlar buna da hesabata daxil edilməsini istədilər ki, ADPU tərəfindən yerli professor-müəllimheyətinin tədris prosesi heç də amerikan professorlrının dərslərindən geri qalmır, əksinə bir çox halda onlardan daha məzmunlu, faydalı və praktik olur.

Tələbə və məzunların qeyd etdikləri digər bir məqam proqramda tələbələrin nailiyyətlərinin qiymətləndirilməsi zamanı bəzi professor və müəllim heyəti (xüsusən CVU tərəfi) tələbələrin çoxuna yüksək qiymət yazırlar ki, bu da çox çalışan tələbələr tərəfindən ədaləətsiz hesab olunur. Onlar hər kəsin zəhmətinə görə qiymətləndiriməsini istəyirlər. Onlar eyni zamanda qeyd edirlər ki, dərslərin CVU tərəfindən 40 nəfər tələbə ilə birgə həyata keçirilməsi tədrisin keyfiyyətinə mənfi təsir göstərir.

## 4. Təhsil proqramı üzrə tətbiq olunan tədris metodları və üsulları

4.1. Təhsil proqramı üzrə təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyətinə dair qeyd etmək istərdik ki, Proqramda tədris aparan müəllimlər müasir təhsil modellərindən geniş şəkildə istifadə də heç bir sərhəd tanımırlar. Keyslərin müzakirəsi, qrup işləri formatında tapşırıqların icrası, simulyasiyaların tətbiqi tələbələrin keçirilən mövzuları yaradıcı və müasir interaktiv formatda öyrənməyə imkan yaradır.

4.2. Təhsil proqramı üzrə tədris metodlarında tələbə yönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyətinə dair qeyd etmək istərdik ki, ADPU-CVU ikili diplom proqramının Məqsəd tələbə mərkəzli tədrisin bütün üstün cəhətlərininin təlim prosesində tətbiq etməkdir. Problem yönlü tədrisin təşkili üçün keyslərdən, simulyativ analizlərdən, rol bölgüsündən geniş şəkildə istifadə olunur ki, bilik yönlü deyil, səriştə əsaslı tədris modeli formalaşdırıla bilinsin. Bu baxımdan nəzəriyyə ilə praktika ayrılıqda deyil, bir yerdə nəzərdən keçirilmiş olur.

4.3. Təhsil proqramı üzrə tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyətinə dair qeyd etmək istərdik ki, proqramın tərəfdaş Corc Vaşinqtinqton Universiteti ilə həyata keçirilməsi bir sıra zərurətlər meydana çıxara bilir. Xüsusən pandemiya zamanı üç semestr müddətindən ABŞ-dan professor-müəllim heyətinin Bakıya səfəri mümkünsüz olduğu üçün tədrisin distant formada təşkili zərurəti meydana çıxmışdır. Səhhət və digər ailə məsələləri ilə bağlı təsadüfən hər hansı CVU müəllimi səfər edə bilmədikdən hər hansısa fənnin yaxud onun bir hissəsinin distant formada təşkili qaçılmaz olduqda proqramın bu zərurətə uyğunlaşdırılmasa çalışılır.

4.4. Təhsil proqramı üzrə tətbiq edilən tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının istifadəsi vəziyyətinə dair qeyd etmək istərdik ki, proqram üzrə dərs deyən müəllimlərin hamısı Qərb ölkələrində təhsil təcrübəsi keçmiş şəxslər olduğundan onların tədris prosesində dərindən öyrənmə, motivasiya etmək və məsuliyyətli şəxsiyyət kimi formalaşdırma istiqamətində təşkili təcrübələri zəngindir. Məsələn, Təhsildə neyroelm fənnində öyrənmənin dərin və elmi əsaslarını daha yaxşı anlamaq üçün tələbələr öyrənmə ilə bağlı miflərin dərindən araşdırılmasına diqqət ayırırlar. Ali təhsildə idarəetmə dərsində rol bölgüsü üzrə müxtəlif vəzifələrin icrası üzrə tədqiqat apararaq fərqli maraqlı tərəfləri təmsil edərək universitetin inkişaf strategiyasını yazmağa və onun Qəyyum Şurası qarşısında müdafiə etmək təcrübəsini tətbiq etməklə öhdəlik götürmə yanaşmasını real keyslər üzərində nümayiş etdirməyə çalışırlar. Təhsil psixologiyası üzrə tələbələrin və müəllimlərin motivasiyası, müəllilərin peşəkar inkişafı fənnində tədrisdə zəruri bacarıqların qazanılması və onların təhsil müəssisəsində idarə olunması dərindən öyrənirlər. Data əsaslı qərarvermə fənnində təhsilin idarə olunmasında məlumatlara (data) əsaslanmağı dərindən öyrənir, təhsildə sahibkarlıq və innovasiyalar fənnində yaradıcı startap ideyalarını inkişaf etdirmək üçün həvəsləndirilir, sonra bir yaradıcı ideya və onun reallaşdırılması yollarına dair konsepsiya ilə çıxış etməyə təşviq edilirlər.

4.5. Təhsil proqramı üzrə tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyətinə dair qeyd etmək istərdik ki, proqramda tədris aparan müəllimlərlə mütəmadi ünsiyyət tədris prosesinin müzakirəsi, tələbələrin performansının analiz edilməsi, eləcə də tələbələrlə sıx və səmimi ünsiyyət, onların tədris prosesinin effektivliyi barədə fikirlərinin istər qrup, istərsə də fərdi qaydada öyrənilməsi hər bir tələbə barədə geniş məlumat toplamağa imkan yaradır. Fənləri mənimsəməkdə çətinlik çəkən tələbələrə dəstək olaraq müəllimlərin ofis saatlarında (office hours) əlavə izahların və müzakirələrin aparılması tələbələrin fərdi xüsusiyyətlərinə uyğun ehtiyaclarının qarşılanmasına xidmət edir. Bundan əlavə, tələbələrin istəyi üzrə müəllimlər tədris metodikasında mümkün dəyişikləri tədris prosesi ərzində tətbiq etməyə çalışırlar. Proqram direktorluğu olaraq müəllim və tələbələr arasında bu prosesin daha effektiv və çevik şəkildə həyata keçirilməsinə dəstək olmağa çalışırıq.

4.6. Təhsil proqramı üzrə tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyətinə dair qeyd etmək istərdik ki, proqramda dərs deyən müəllimlər mümkün texnoloji imkanlardan istifadə edərək tədris prosesində aktiv öyrənməni dəstəkləməyə çalışırlar. Kompüterlərin internetə qoşulu olması, auditoriyalarda proyektor və ağıllı lövhələrin olması müəllimlərin bu fəaliyyətini imkan daxilində dəstəkləyir. Təbii ki, daha müasir texnoloji imkanlara malik olmaq tədris prosesinin daha yaxşı təşkilinə dəstək olmuş olardı, lakin hazırda mümkün imkanları da yetərli hesab etmək olar.

4.7. Təhsil proqramı üzrə yeni təlim və tədris metodlarının və interaktiv öyrənməyəni təşviq etmə vəziyyətinə dair qeyd etmək istərdik ki, ikili diplom proqramında yeni təlim və tədris metodlarından geniş şəkildə istifadə olunur, tədrisin interaktiv qaydada təşkili üçün geniş yaradcı metodlarda istifadə olunur. Qrup işləri, komanda halında tapşırıqların icra edilməsi,

təqdimatlar, təhsil sahəsində aparıcı lider kimi qonaq spikerlərin dəvət edilməsi tələbələrin interaktiv öyrənmə imkanlarını təşviq edir. Bundan əlavə, ikili diplom proqramında tədris prosesində simulyasiyalardan geniş istifadə olunur. Layihə əsaslı öyrənmə təcrübəsindən də geniş şəkildə faydalanılır.

4.8. Təhsil proqramı üzrə tədris metod və üsullarının dövrü olaraq monotinqi və preventiv tədbirlərin sistematik olaraq qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyətinə dair qeyd etmək istərdik ki, yuxarıda da qeyd etdiyimiz kimi, tədris metod və üsulları mütəmadi olaraq professor-müəllim və tələbələrlə qarşılıqlı şəkildə müzakirə edilərək öyrənmə prosesinin efffektivliyi, maraqlı olması ilə bağlı zamanında məlumat əldə etməyə imkan yaradır. Bu proses həm tədris müddətində, həm də fənlərin tədrisi başa çatdıqdan sonra aparılır. Bu da mümkün problemlər zamanı öncədən məlumatlı olmaq, preventiv addımlar atmağa imkan yaradır.

Bu meyar üzrə proqramın güclü tərəfi proqramda dərs deyən müəllimlər bu meyarın indikatorları üzrə nəzərdə tutulan indikatorların hər birini effektiv şəkildə tətbiq etməklə fəal təlim metodlarından aktiv şəkildə istifadə edirlər. Onların bu sahədəki zəngin təcrübəsi və üstün kompetensiyaları bu istiqamətdə müsbət nəticələrin əldə edilməsinə nail olmağa imkan verir.

Bu meyar üzrə proqramın inkişaf etdirilməyə ehtiyacı olan tərəfi ilə bağlı tələbə və məzunların əsas qeydləri bundan ibarətdir ki, müəllimlərin də razılığı olduğu halda, qrup işlərində bölgü zamanı tələbələrin fikirləri alınması, tapşırıqların rubriklərinin daha ətraflı yazılması, öyrənmə təcrübələri daha dərin keçirilməsi üçün virtual reallıq və süni intellekt kimi innovativ texnologiyalardan istifadə edilməsi, həmçinin öyrənmə prosesini təkmilləşdirmək üçün təhsil tətbiqlərin istifadə olunması arzuolunandı.

Tələbə və məzunların təklif etdiklərini digər bir məsələ isə bəzən müəllimlərin (xüsusən amerikan müəllimlərin) tələbərə yüksək qiymət yazmalarıdır. Tələbələr belə hesab edirlər ki, bu çox çalışan tələbələrin həvəsdən düşməsinə, qiymətləndirmədə ədalətin pozulması nəticəsinə gəlməyi söyləməyə əsas verir.

## 5. Tədris proqramı üzrə istifadə olunan təlim və tədris resursları

5.1. Təhsil proqramı üzrə öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyətinə dair qeyd etmək istərdik ki, ikili diplom proqramı çərçivəsində sözsüz ki, Corc Vaşinqton Universitetinin imkanları ilə ADPU-nun imkanaları eyni deyildir. Digital imkanları daha yüksək olan CVU bu istiqamətdə tələbələrrə daha üstün imkanlar yaratmaq imkanındadır. ADPU təcrübəsində tədrisin elektron idarə edilməsi üçün TEAMS platformasından istifadə olunur.

5.2. Təhsil proqramı üzrə müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyətinə dair qeyd etmək istərdik ki, Proqramda dərslərin keçirildiyi Təhsil İnstitutunun Təhsil Texnologiyaları Mərkəzində müasir təlim prosesinin təşkili üçün bütün zəruri texnikalar mövcuddur. Auditoriyalarda asma proyektorlar və ağıllı lövhələr quraşdırılmışdır. Tədrisin təşkili üçün auditoriyalar dərs zamanı kompüterlə təchiz edilir.

5.3. Təhsil proqramı üzrə tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyətinə dair qeyd etmək istərdik ki, proqramda tədrisin təşkili zamanı tələbə aktivliyinə xüsusi diqqət edilir. Bunun inzibati deyil, daha çox tələbələrin tədris prosesində maraqlandırılması baxımından, onlar üçün proqramın daha faydalı edilməsi ilə təşkil edilir. Bunun üçün müəllimlər fərqli metodlardan istifadə edirlər. Məsələn, tələbələrin dərsdən öncə oxuduqları materiallardan ən maraqlı hissələrlə bağlı TEAMS-də rəy yazmaları tələb olunur. Eyni zamanda hər tələbənin ən azı iki digər qrup yöldaşının rəyinə rəy (feedback) bildirməsi istənilir. Bu yolla tələbələrin hər birinin təlim materalı üzrə məlumatlı olması və aktiv iştirakı təmin edilmiş olur.

5.4. Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğuna dair qeyd etmək istərdik ki, bu ikili diplom proqramında yalnız bir ixtisas “Təhsil siyasəti və idarəetməsi” tədris edildiyi üçün xüsusis rəqəmsal xidmət və texnoloji təminat tələb olunmur. Mövcud texniki təminatın bu ixtisas üzrəkadr hazırlığı üçün yetərli hesab oluna bilər.

5.5. İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyətinə dair qeyd etmək istərdik ki, Proqramda dərslərin keçirildiyi Təhsil İnstitutunun Təhsil Texnologiyaları Mərkəzində istər kabel, istərsə də wifi internet şəbəkəsi mövcuddur. Proqramda təhsil alan tələbələrin böyük əksəriyyəti artıq təhsil sahəsində çalışan mütəxəssislər olduğu üçün onlar öz şəxsi kompüterlərindən istifadə etməyə üstünlük verirlər. Lakin ehtiyacı olan tələbələr üçün kompüter dəstəyi təmin edilir.

5.6. Təhsil proqramı üzrə auditoriya fondunun (kv m.) onun tələbə sayına uyğunluğuna dair qeyd etmək istərdik ki, hazırda proqramda cəmi dörd qrup mövcud olduğu üçün Təhsil İnstitutunun Təhsil Texnologiyaları Mərkəzində tədrisin fasiləsiz və səmərəli şəkildə təşkili üçün bütün zəruri etiyaclar qarşılanmışdır.

5.7. Təhsil proqramı üzrə akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikasınə dair qeyd etmək istərdik ki, proqramda inzibati heyət cəmi iki nəfərdən ibarət olduğu üçün onlar üçün bir inzibati otaq ayrılmışdır. Akademik heyət əsasən saat hesabatı professor-müəllim heyətindən ibarət olduğu üçün onlar adətən tədris üçün ayrılmış otaqlardan istifadə edirlər. Proqramın genişlənməsi nəzərdə tutulmadığı üçün otaq fondunun inkişaf dinamikası nəzərdə tutulmamışdır. Lakin ehtiyac olduğu təqdirdə tədris binasında otaq fondunun genişləndirilməsi imkanları vardır.

5.8. Kitabxananın eyni zamanda (elektron və bilavasitə) təhsil proqramı üzrə tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikasınə dair qeyd etmək istərdik ki, bu proqramda tədris dili ingilis dili olduğundan və tədris prosesində əsasən elektron resurslardan istifadə edildiyindən fiziki kitablara ciddi ehtiyac olmur.

5.9. Təhsil proqramı üzrə kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikasına dair qeyd etmək istərdik ki, bu ikili diplom proqramında dərsliklərin və dərs vəsaitlərinin çapı nəzərdə tutulmamış və bunun üçün müvafiq maliyyə vəsaiti ayrılmamışdır. Odur ki, bu indikator üzrə fəaliyyətin həyata keçirilməsi bu proqramın icrası çərçivəsində gözlənilən deyil.

5.10. Təhsil proqramı üzrə tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikasına dair qeyd etmək istərdik ki, Proqramda tədris dili ingilis dili olduğu üçün bütün ədəbiyyat yalnız xarici dildədir. İlk tədris ilində ədəbiyyatın alınıb Azərbaycana göndərilməsi ilə bağlı cidi sıxıntılar yaşandı, kitabların Gömrükdə rəsmiləşdirilməsində problem oldu. Bu baxımdan qərara alındı ki, elektron ədəbiyyatdan istifadə olunsun.

5.11. Təhsil proqramı üzrə dərslik və elmi ədəbiyyatlardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikasına dair qeyd etmək istərdik ki, semestrin sonunda tədris olunan fənlərin materialları ilə bağlı həm tələbələrin fikirləri öyrənilir, həm müəllimlərlə müzakirələr aparılır. Alınan rəylərin və müzakirələrin sonunda proqramda istifadə olunan ədəbiyyatın yenilənməsi, tədris materiallarının ağırlığı müzakirə edilir və növbəti tədris semestri üçün zərurir dəyişikliklər edilir. İlk tədris ilində dərsliklərin alınması ilə bağlı gömrükdə xeyli çətinliklər yaşandı deyə indi proqramda əsasən elektron resurslardan istifadə olunur. Proqramda istifadə edilən dərsliklərin qiymətləri çox yüksək olduğu üçün bu həm səmərəlilik, həm də praktiklik baxımından daha faydalıdır.

5.12. Təhsil proqramı üzrə təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi vəziyyətinə dair qeyd etmək istərdik ki, hər semestrin sonunda proqramda dərs deyən müəllimlərlə istifadə olunan təlim və tədris resurslarının müzakirəsi və analizi aparılır. Tələbələrin mənimsəmə səviyyəsindən asılı olaraq təlim materiallarında bir sıra dəyişikliklər aparılır.

5.13. Təhsil proqramı üzrə təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı vəziyyətinə dair qeyd etmək istərdik ki, tədris resurslarının daha çox elektron variantlarından istifadə olunması kəmiyyətlə bağlı ehtiyacları təmin edir. Təlim və tədris resuralrının keyfiyyəti ilə bağlı qeyd etmək istərdik ki, proqramda ən yeni, müasir təlim materiallarından istifadə olunur. Tədris dilinin ingilis dilində olması, tərəfdaş universitetin ABŞ-ın tanınmış universitetlərindən biri olması təlim və tədris resursları hər hansı ciddi problemin meydana çıxmamasına səbəb olur.

5.14. Təhsil proqramı üzrə təhsil alan sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyətinə dair qeyd etmək istərdik ki, proqramın icrası müddətində hələki belə bir ehtiyac yaranmamışdır. Belə bir ehtiyac yarandığı təqdirdə onların qarşılanması istiqamətində işlərin görülməsi həyata keçirilə bilər.

5.15. Təhsil proqramı üzrə təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi vəziyyətinə dair qeyd etmək istərdik ki, təlim və tədris resursları imkan daxilində təkmilləşdirilir. Tərəfdaş ABŞ universitetinin bu istiqamətləri daha genişdir. ADPU da mövcud imkanlar daxilində bu istiqamətdə ciddi addımlar atmağa çalışır.

Bu meyar üzrə proqramın güclü tərəfi ondan ibarətdir ki, təhsil proqramı ingilis dilində olduğundan və proqramın tərəfdaşı təcrübəli Corc Vaşinqton Universiteti olduğundan tələbələrə CVU-nun zəngin elektron resurslarından istifadə imkanı yaradılmışdır.

Bu meyar üzrə proqramın inkişaf etdirilməyə ehtiyacı olan tərəfi olaraq tələbə və məzunların rəyi ondan ibarətdir ki, ADPU müəllimlərin hər birisinin aktiv şəkildə TEAMS istifadə etməsi, qiymətləri çox gecikdirmədən yazmaları və təhsilin idarə edilməsində qarşılaşılan problemləri əks etdirən real simulyasiyalar və nümunə araşdırmaları hazırlanması, layihə idarəetmə proqramı və kommunikasiya platformaları kimi təhsilin idarə edilməsinə aid olan müxtəlif təhsil texnologiyası alətlərini araşdırılması və proqramda tətbiq olunması istiqamətində işlər davam etdirilməlidir.

## 6. Tədris proqramı üzrə tələb olunan təhsil infrastrukturu və maddi-texniki baza

6.1. Təhsil proqramı üzrə tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyətinə dair qeyd etmək istərdik ki, tədris otaqların sayı və onların ölçüləri dövlət standartlarının tələblərinə

uyğundur. Təhsil İnstitutunun Təhsil Texnologiyaları Mərkəzində tədrisin fasiləsiz və effektiv təşkili üçün zəruri şəraitlər təmin olunmuşdur.

6.2. Təhsil proqramı üzrə ədəbiyyat və digər təlim resurslarının mövcudluğu vəziyyətinə dair qeyd etmək istərdik ki, Corc Vaşinqton Universiteti tərəfindən Blackboard LMS platformasından istifadə olunur. Tələbələrin büün tədris materialları oraya yüklənir. ADPU tərəfdən isə əsasən TEAMS platformasından istifadə olunur. Bütün tədris materialları tələbələrin emaillərinə göndərilməklə yanaşı TEAMS-ə də yüklənir.

6.3. Təhsil proqramı üzrə təlim və tədris bazasının mövcudluğu vəziyyəti qənaitbəxş hesab oluna bilər. Beləki, tədrisin effektiv və fasiləsiz təşkil olunması üçün bütün mümkün şərait təmin olunmuşdur. İstər tədris binası, istərsə də auditoriyalar dərslərin təşkili üçün bütün zəruri tələblərə cavab verir.

6.4. Təhsil proqramı üzrə tədris laboratoriyalarının mövcudluğu vəziyyətinə dair qeyd etmək istərdik ki, ADPU-CVU ikili diplom proqramı yalnız bir ixtisas - "Təhsil siyasəti və idarəetməsi" üzrə mütəxəssis hazırlığı həyata keçirdiyindən və bu ixtisas üzrə kadr hazırlığı xüsusi laboratoriya tələb etmədiyindən bu istiqamətdə xüsusi bir çətinlik meydana gəlmir. Təhsilalanlar yalnız statistika dərslərinin tədrisi üçün kompüter laboratoriyasına ehtiyac duyduğundan bu ehtiyac, müəllimlərin tövsiyəsi ilə, tələbələrin özlərinin şəxsi laptopları ilə ödənilir. Bu halda tələbələr dərsdə etmiş olduğu tapşırıqları öz kompüterlərində yadda saxlayır və sonradan istifadə etmək imkanlarına da malik olurlar. "Təhsildə neoroelm" kimi dərslərdə tələbələrin tanış olmaları və praktik məşğələlərinin təşkili üçün Psixoloji Tədqiqatlar Mərkəzinin imkanlarından istifadə olunur.

6.5. Təhsil proqramı üzrə istehsalat-təcrübə bazasının mövcudluğu vəziyyətinə dair qeyd etmək istərdik ki, Proqramda təhsil alan tələbələr istehsalat təcrübəsini müvafiq təhsil institutlarında keçdikləri üçün xüsusi bir bazaya ehtiyac yoxdur. Təhsilalanlar öz istklərinə və maraqlarına uyğun olaraq istehsalat təcrübələrini müxtəlif təhsil müəsisisələrində, beynəlxalq təşkilatlarda və Elm və Təhsil Nazirliyinin tabelində olan müxtəlif təsisatlarda keçirlər. Təlsilalanların hamısı artıq proqrama daxil olanda özəl, dövlət yaxud beynəlxalq təşkilatlarda çalışdıqları üçün (böyük əksəriyyəti də təhsil sektorunda) bir oxuya-oxuya həm də istehsalat təcrübəsi keçmiş olurlar, dərslərdə öyrəndirklərini praktikada ilə müqayisə etmək, tətbiq etmək imkanına malik olurlar. Bundan əlavə, tez-tez aparıcı təhsil müəssisələrinə tədris səfərləri təşkil olunur, təhsil sahəsində aparıcı mütəxəssislər istər dərslərə, istərsə də müxtəlif görüşlərə qonaq məzurəçi qismində dəvət olunurlar. Bütün bu imkanlar təhsialalanlara oxuduqlarımüddətdə zəngin istehsalat təcrübəsi qazanmağa imkan yaradır.

6.6. Təhsil proqramı üzrə distant təhsil infrastrukturunun mövcudluğu vəziyyətinə dair qeyd etmək istərdik ki, Proqramda distant təcrübəsi pandemiya və Vətən Müharibəsi dövründə tətbiq edildi. Beləki, Proqramın ilk dövründə bir ildən artıq müddətdə (2020-2021-ci tədris ilində) CVU professorarının Bakıda səfər etməsi mümkün olmadığı üçün dərslər məsafədən online qaydasında təşkil edildi. Bu baxımdan, istər müəllimlərin, istərsə də təhsilalanların distant təhsil təcrübəsi yarandı. Distant təhsil üçün xüsusi avadanlıqlar olmasa da, istər professor- müəllim heyəti, istərsə də təhsilalanlar istifadə etdikləri elektron vasitələrdən istifadə edərək xüsusi zərurət olduqda dərslərə online formatda qoşulmaq imkanına malik olurlar.

6.7. Təhsil proqramı üzrə tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyətinə dair qeyd etmək istərdik ki, tədris infrastrukturu çox da müasir və üstün standartlarda olmasa, Azərbaycan ali təhsil reallığı üçün yaxşı vəziyyətdə hesab oluna bilər Mövcud infrastruktur imkanları bərabər şəkildə bütün tələbələr üçün əlçatandır və onların istifadəsində heç bir çətinlik olmur. Auditoriyalarda proyektorlar, internetə qoşulmuş kompüter və ağıllı lövhələr

mövcuddur. Tədris binası ADPU-nun balansında olmadığı üçün oradan istifadə də bəzi çətinliklər olur, məsələn, yeməkxananın istifadəsində məhdudiyyət olur. Proqramda dərslər saat 19-da başlasa da, yeməkxana adətən saat 18-də bağlanır. Bu səbəbdən tələbələrin ondan istifadə imkanları məhdud olmur.

6.8. Təhsil proqramı üzrə sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu vəziyyətinə dair qeyd etmək istərdik ki, Proqram üzrə tədrisin təşkil olunduğu Təhsil Texnilogiyaları Mərkəzində pandus quraşdırılmışdır. Sağlamlıq imkanı məhdud olan şəxslər üçün liftdən istifadə imkanları vardır. Doğrudur, tədris binası yeni olmadığı üçün onun tikintisi zamanı sağlamlıq imkanları məhdud olanşəxslərin bütün ehtiyaclarını qarşılayacaq normalara diqqət yetirilməmişdir. Lakin mövcud imkanlar daxilində sağlamlıq imkanları məhdud olan şəxslərin tədris binasından bərabər imkanlarla istifadəsi üçün zəruri dəstək göstərilir. Qeyd edək ki, CVU professorlarından biri artıq iki ildir ki, əlil arabasından istifadə etməklə tədris binasından və auditoriyadan hər hansı maneə olmadan və kimsəyə ehtiyac duymadan istifadə edə bilir.

6.8. Təhsil proqramı üzrə tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparılması vəziyyətinə dair qeyd etmək istərdim ki, istər Təhsil Texnilogiyaları Mərkəzi, istərsə də Azərbaycan Dövlət Pedaqoji Universiteti tərəfindən hər il tədris binasının monitorinqi aparılır. Tədris binası ADPU-ya məxsus olmadığı üçün hüquqi və maliyyə baxımından Proqramın tədris olunduğu binaya əsaslı maliyyə vəsaitləri ayıra bilmir. Bu da bir sıra hallarda ciddi çətinliklər yaradır. Məsələn tərəfdaş amerkan universiteti tədris auditoriyalarına kondisionerlərin qoyulması istəyir. Təhsil Texnilogiyaları Mərkəzinin rəhbərliyi isə binanın infrastrukturunun köhnə olduğundan yeni kondisionerlərin quraşdırılmasına imkanın olmadığını deyir.

Bu meyar üzrə proqramın inkişaf etdirilməyə ehtiyacı olan tərəfi olaraq tələbə və məzunlar qeyd etmişlər ki, hazırda güclü olmayan yüksəksürətli internetə sərmayə qoyulması, tələbələrin və müəllimlərin rəyi əsasında təhsil infrastrukturunu mütəmadi olaraq qiymətləndirmək və təkmilləşdirmək üçün sorğu sisteminin yaradılması faydalı olardı.

## 7. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi

Tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi zamanı Milli Kvalifikasiyalar çərçivəsi sənədində 7-ci kvalifikasiya səviyyəsi olan magistratura təhsili üçün nəzərdə tutulan kompetensiaların əldə edilməsi və onların qiymətləndirilməsi modeli əsas götürülür. Bu baxımdan işçi fənn proqramlarında nəzərdə tutulan təlim nəticələrinin kvalifikasiya tələblərinə uyğunlaşdırması və təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi üçün də tapşırıqlar məhz o istiqamətdə verilir. Qrup işləri, təqdimatlar, keyslərin analizi, sahə tədqiqatları üçün məlumatların toplanması, müxtəlif mövzular üçün rol bölgüsü əsaslı simulyasiya tapşırıqları tələbə mərkəzli təlim prosesi baxımında onların öyrənmə və tətbiq etmə imkanlarını stimullaşdırmaqla yanaşı, sadəcə biliklərinin deyil, real bacarıqlarının - kompetensialarının artırılmasına xidmət edir. Bu baxımından tədrisin dizayn hədəfləri tələbələrin bilik bacarıqlarının inkişafı yönlü tapşırıqların verilməsi və onların icrası əsasında qiymətləndirilmənin keçirilməsi vahid yanaşmanı özündə əks etdirir.

*Məsələn, Elizabet Qrantın tədris etdiyi "Təhsil siyasətinin dizaynı" fənnində tələbələər milli və beynəlxalq təhsil təcrübələrini öyrənməklə sonda seçdikləri təhsil mövzusu istiqamətində "Policy memo" tədqiqat işi yazıb təqdim edirlər. Elizabet Qrantın son semestrdə tədris etdiyi*

*“Təhsil siyasətinin implementasiyası” fənnində isə düşünülmüş thsil siyasətinin həyata keçirilməsi ilə bağlı praktikada qarşılaşan əsas çətinliklər, implementasiyanın özəllikləri barədə müxtəlif keysləri analiz edir, bilik və bacarıqlarını inkişaf etdirilər. Eləcə də dərslərə ölkədə təhsil siyasətinin formalaşdırılması və icrası ilə məşğul olan tanınmış mütəxəssislər dərslərə qonaq məruzəçi kimi dəvət etməklə mövcud təhsil siyasəti təcrübəsi və onların icrası ilə bağlı məsələlər müzakirə edilmiş olur.*

*Maria Çe-nin dərslərində tələbələr müasir təhsil mühitində liderlik təcrübəsini beynəlxalq təcrübə əsasında dərindən öyrənmək və bunu praktik tapşırıqlarla icra etmək imkanı əldə edirlər.*

*“Riyaziyyat və statistika” dərsində (Elçin Məmmədov), elə “Məlumat əsaslı qərarvermə” dərsində (Tamerlan Rəcəbov) tələbələr real data-lar toplayaraq onları təhlil edir və təqdimat formasında sonda təqdim edirlər. Beləliklə nəzərə biliklərin real bacarıqları nümayiş etdirmə formasında onların bilik və bacarıqları qiymətləndirilir.*

*“Təhsildə sahibkarlıq və innovasiya” (Rüfət Əzizov) fənnində hər dərs mövzunun təqdimatı və müzakirəsi ilə yanaşı SABAH hub-da qeydiyyatdan keçən və inkişafı üçün dəstəklənən bir pitch (startup ideyası) təqdimatı keçirilməklə biznes ideyalarının inkişafı təcrübəsi öyrədilməklə yanaşı sonda onlardan biz biznes ideyası təqdim etmək istənilir. Tələbələrin qrup şəklində hazırladıqları biznes ideyaları onların fənn üzrə öyrəndikləri bilik və bacarıqlar biznes ideyası təqdimatı əsasında dəyərləndirilir.*

*“Təhsildə neyroellm” fənnində (Ülkər Babayeva) tələbələr öyrənməyə dair yanlış miflələri aşkara çıxarmaqla, öyrənmənin necə baş verməsi və bu prosesin akademik olaraq necə idarə edilməsi ilə bağlı konsepsiyaları dərindən öyrənməyə çalışırlar.Bunun üçün mövcud texnoloji imkanlar üzrə təcrübü məşğələ imkanlarından da istifadə edirlər.*

*“Ali təhsilin idarə edilməsi” fənnində (Tofiq Əhmədov) tələbələr universitetdə olan əsas maraqlı tərəfləri təhsil edən rol bölgüsü əsasında ali təhsildə həmin vəzifələrin icra edilməsi ilə bağlı hansı problem və çətinliklərin olması, hansı kompetensiyaların zəruri olduğunu həmin vəzifəni daşıyan şəxsləri müsahibə etməklə, eləcə də beynəlxalq təcrübəni müqayisəli təhlil etməklə öyrənmiş olurlar. Sonda yeni yaradılan xəyali universitetin strategi inkişaf planını hazırlayıb Qəyyumlar Şurası qarşısında (digər qrup tələbə yoldaşları) müdafiə edirlər. Beləliklə onlar eyni zamanda kənar maraqlı tərəf olaraq inkişaf strategiyasının dəyərləndirilməsini etmək kimi kompetensiyaya da sahib olmuş olurlar. Bundan əlavə tələbə ali təhsil sahəsində aparıcı mütəxəsisslərin (rektor, prorektor, dekan və s.) qonaq məruzəçi qismində dəvət olunmaqla yerli və beynəlxalq təcrübəni müqayisəli şəkildə öyrənmiş olurlar.*

*“Müəllimlərin peşəkar hazırlığı” fənnində (Yulia Kərimova) tələbələr beynəlxalq və yerli təcrübəni qarşılıqlı şəkildə öyrənməklə müəllim peşəsi üçün olan peşəkar bacarıqların hazırlanması üçün bu sahədə çalışan insanlarla müsahibələr keçirməli, peşə standartları layihəsi hazırlamalı və bunları podcast olaraq təqdim etmələri istənilir.*

*“Təhsilin hüquqi aspektləri” fənnin tədrisi zamanı (Tofiq Əhmədov) tələbələrdən qanunvericiliyin araşdırılması istənilir. Təhsilalanlar eləcə də təhsilin hüquqi problemlərinə aid tərtib edilmiş məhkəmə keysi üzrə iddiaçı, müdafiəçi və hakim rolunda çıxış edərək məhkəmə simulyasiyası üzrə tapşırıq icra etmiş olurlar. Bu da onlara qanunvericiliyin tətbiqi, onun təkmilləşdirilməsi, maraqların toqquşması kimi zəruri aspektlər istiqamətində bacarıqlarının artırılması və onların nümayiş etdirilməsinə imkan yaratmış olur.*

7.1. Təhsil proqramı üzrə bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti ilə bağlı qeyd etmək istərdik ki, tərəfdaş CVU təhsil

proqramı üzrə tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi üçün milli təcrübədən fərqli metodlardan istifadə edir. Bu da daha çox fənnin spesifikası ilə bağlı müəllimlərin akademik azadlığına, yaradıcılıq potensialına söykənən yanaşmadan meydana gəlir. İkili diplom proqramı olduğu üçün təhsilalanlar eyni, müasir yanaşmanı yerli professor-müəllim heyətindən də gözləyirlər. Bu baxımdan NK-in ümumi təlıbləri gözlənilməklə tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsində müəllimlər aralıq və yekun imtahan formasında deyil, fərdi və qrup tapşırıqları formasında həyata keçirilir. Tapşırıqların icrası daha daha çox tətbiq və tədqiqat yönlü olur.

7.2. Təhsil proqramı üzrə qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti ilə bağlı qeyd etmək istərdik ki, professor-müəllim heyətinin hazırladıqları sillabuslarda qiymətləndirmə meyarları aydın şəkildə göstərilir. Onların ölçüləbilənliyi tapşırıqlara dair tələbləərin aydın və detallı şəkildə qeyd edilməsi ilə bağlıdır. Qiymətləndirmənin etibarlılığı tələbələrin aldıqları qiymətlərdən narazı olduğu halda ilk öncə müəllimlə, digər mərhələdə isə proqram rəhbərliyi ilə müzakirə etmək imkanlarının olması ilə bağlıdır. Proqramda təhsil alan tələblərin böyük əksəriyyətinin təhsil müəssisələrində çalışan müəllimlər olduğunu nəzəərə alaraq onlar öz haqlarını tələb etməyi yaxşı bacardıqları üçün bu hallarda tələbələr qəbul edilir, dinllənilir, zəruri rəylər verilir. İndiyədən tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi ilə bağlı cidi bir narazılıq halları yaşanmamışdır.

7.3. Təhsil proqramı üzrə qiymətləndirmədə müxtəlif formalarından (üz-üzə, məsafədən, qarışıq, açıq və s.) metod və vasitələrdən istifadə olunması vəziyyəti ilə bağlı qeyd etmək istərdik ki, yuxarıda qeyd etdiyimiz kimi, proqram daxilində tələbələrin bilik və bacarıqlarının qiymətləndirillməsi əsasən tədqiqat, araşdırma formasında fərdi və qrup işləri əsasında olur. Tələbələrdən çox zaman öz tədqiqat nəticələri ilə bağlı tədqimat etmələri istənilir ki, bu da onların bu istiqamətdə bacarıqlarının inkişaf etdirilməsinə dəstək göstərir.

7.4. Təhsil proqramı üzrə qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti ilə bağlı qeyd etmək istərdik ki, tələbələrə hər bir fərdi və qrup işləri üçün müəlimlər tərəfindən əsaslandırılmış rəylər (feedback) verilir. Bu da prosesin ədalətliliyini, obyektivliyini, şəffaflığını təmin etmək və tələbələrə verilən qiymətin əsaslandırılması üçün effektiv vasitədir.

7.5. Təhsil proqramı üzrə qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti ilə bağlı qeyd etmək istərdik ki, bu ikili diplom proqramında professor-müəllim heyəti tədqiqat işlərini, fənn üzrə əsas tapşırıqları elə müəyyən edirlər ki, bu indikatorda qeyd edilən tələblər birbaşa yaxud prosesin nəticə olaraq təmin edilmiş olur. Məsələn, bir çox fəndə tələbələrdən refleksiya tapşırıqlarının yazılması tələb olunur ki, bu da özünüqiymətləndirmə bacarığının formalaşması və inkişafına dəstək göstərir. Tələbələrin sərbəst öyrənmə istəyinin yaradılması üçün tapşırıqların icrası, mövzusunun seçilməsi və tətbiq edilmə (işlənmə forması) üçün tələbələr qarşısında məhdudiyyətlər qoyulmur, əksinə müəllimlərin yeniliklrə açıq olması tələbələrin sərbəst öyrənmə istəkləri stimullaşdırmış olur. Təlimin keyfiyyətinin yüksəldilməsinə nail olmaq üçün tələbə-müəllim-proqram heyəti olaraq səmimi, qarşılıqlı hörmət və anlayış prinsipləri əsasında səmərəli əmkdaşlıq həyata keçirilmiş olur.

7.6. Təhsil proqramı üzrə qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti ilə bağlı qeyd etmək istərdik ki, əsasən TEAMS platformasından istifadə olunur. Təhsilalanlar hazırladığı tapşırıqları TEAMS-ə yükləyir, sistem üzərindən onlrın hazırladıqları tədqiqatlar dəyərləndirilir. Bəzi müəllimlər öz fənninin spesifikliyi nəzərə alınaraq fərqli LMS-dən istifadə edirlər. Məsələn Məlumat saslı

qəraravermə fənnində Tamerlan müəllim Rəcəbov Neo LMS online platformasından istifadə etməyə üstünlük verir. Tələbələr tapşırıqlarını buraya yükləyir, onların qiymətlərini də buradan öyrənmiş olurlar.

7.7. Təhsil proqramı üzrə sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti ilə bağlı qeyd etmək istərdik ki, proqramın icrası müddətində bu istiqamətdə belə bir ehtiyac yaranmamışdır. Ehtiyac olduğu halda sahə üzrə mütəxəsislərlə birgə belə bir qiymətləndirilmənin təşkili mümkündür.

7.8. Təhsil proqramı üzrə cari və aralıq qiymətləndirmələrin müvafiq fənnlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti ilə bağlı qeyd etmək istərdik ki, proqramda tədris aparan müəllimlərin hamısı geniş beynəlxalq təcrübəyə malik şəxslər olduğu üçün onlar cari və aralıq qiymətləndirilmələr zamanı müasir yanaşmaları tətbiq etməklə şəffaflıq və ədalətlilik prinsiplərinin maksimum tətbiqinə nail olmağa çalışırlar. Tapşırıqlar fərdi və qrup halında tədqiqatlar formasında olduğu üçün köçürmə hallarının qarşısının alınmasına mümkünsüz olur. Tədrisin təşkilində və qiymətləndirmə zamanı indikatorlarda qeyd edilən rəqabətlilik deyil, əməkdaşlıq və komanda halında öyrənmə səylərinə daha çox təşəbbüs göstərilir.

7.9. Təhsil proqramı üzrə Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və/ və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili) ilə bağlı qeyd etmək istərdik ki, bu proqram spesifik olduğu üçün, iki universitet arasında bağlanan müqavilə ilə tənzimləndiyi üçün burada milli proqramlarda həyata keçirilən Yekun Dövlət Qiymətləndirilməsi tətbiq edilmir. Tələbələr hər iki universitet tərəfindən 10 fənni tamamladıqdan sonra CVU tərəfindən tələb olunan capstone layhəsini yazmaqla proqramı bitirmiş bitirmiş olurlar. Bu tədris planı Təhsil İnstitutu tərəfindən hazırlanmaqla ADPU Elmi Şurası tərəfindən təsdiq edilmişdir.

7.10. Təhsil proqramı üzrə bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti ilə bağlı qeyd etmək istərdik ki, proqram üzrə tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi bir tərəfdən Nazirlər Kabinetinin müvafiq əsasnamələrinə əsaslansa da, digər tərəfdən də beynəlxalq təcrübəyə əsaslanaraq həyata keçirilir. Tələbələr ikili diplom proqramında təhsil aldıqları üçün milli proqramda da beynlxalq təcrübənin nəzərə alınması zərurəti yaranır. Bu baxımdan proqramda ADPU tərəfdən dərslərin təşkilində tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi tələbələrin fərdi və qrup halında akademik tədqiqat yazıları əsasında həyata keçirilir. Tələbələrə müəllimlər tərəfindən rəylər (feedback) verilərək tədqiqat işlərini təkmilləşdirmək üçün tövsiyələr və məsləhətlər verilir. Proqram rəhbərliyi ilə müəllim arasında tələbələərin bilik və bacarıqlarının qiymətləndirilməsi ilə bağlı mütəmadi müzakirlər keçirilir, performansı zəif olan tələbələrlə fərdi iş və dəstək xidmətləri göstərilir. Proqramda təhsil alan tələbəlrin sayı az olduğu üçün prosesin effektiv şəkildə izlənilməsi, fərdi performans barədə məlumat toplamaq mümükün olur.

7.11. Təhsil proqramı üzrə təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başa düşülən formada olması və tələbələr üçün əlçatan olması ilə bağlı qeyd etmək istərdik ki, tədris prosesi başlamamışdan öncə tələbələrə təhsil proqramı barədə ətralı məlumat verilir.

7.12. Təhsil proqramı üzrə təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müavafiq arayışın verilməsinin qanunvericiliyin tələblərinə uyğunluğu ilə bağlı qeyd etmək istərdik ki, bu ikili diplom proqramın sonunda məzunlara tərəfdaş Corc Vaşinqton Universiteti tərəfindən təhsil siyasəti və insan inkişafı, Azəraycan Dövlət Pedaqoji Universitet tərəfindən Menecment (təhsilin təşkili və idarə

olunması) diplomları verilir. Bunları qazanmaq üçün təhsilalanlar CVU tərəfindən 10, ADPU tərəfindən tədris olunan 10 fənni müvəffəqiyyətlə bitirməli, istehsalat təcrübəsində iştirak etməli, eləcə də capstone layihəsi təqdim etməlidirlər.

Bu meyar üzrə proqramın güclü tərəfi proqramda dərs deyən müəllimləərin beynəlxalq təhsil təcrübəsinə malik olduqları üçün bu meyarın indikatorları üzrə tələb olunan şərtləri ödəməkdə hər hansı çətinlik çəkməmələridir.

Bu meyar üzrə proqramın inkişaf etdirilməyə ehtiyacı olan tərəfi kimi tələbə və məzunlar qeyd ediblər ki, tələbələrin öz qrup yoldaşlarının (peer-assestment) işini qiymətləndirməyə imkan verən və eyni zamanda, tələbələri özüöyrənmələri haqqında düşünərək və təkmilləşdirmə sahələrini müəyyən edərək, özünüqiymətləndirmədə (self-assestment) daha aktiv iştirak etmək və prosesin təkmilləşdirilməsi qeyd oluna bilər.

## 8. Təhsil proqramına cəlb olunan professor-müəllim heyəti

Təhsil proqramına cəlb olunan professor-müəllim heyəti dünyanın aparıcı ali təhsil müəssisisələrində təhsil alan, təhsil sahəsində aparıcı layihələərinə rəəhbərlik edən, təhsil nazirliyinin strukturunda çalışmış və hazırda çalışmaqda olan şəxslərləndir. Bu da tələbələrə nəzərə biliklərlə yanaşı praktik bacarıqlar verməк,

Proqramda CVU tərəfindən cəmi səkkiz müəllim tədris fəaliyyətini həyata keçirir.

| **Ad və soy adları** | **Elmi dərəcəsi** | **Tədris etdiyi fənn** |
|---|---|---|
| Elizabeth Gran (Qeyd: *Bu ildən tədris etmir*) | Stanford University (Bachelor)<br>Ed.M Harvard University<br>ED.D Harvard University | - Education Policy design<br>- İmplementation for Policy Makers |
| Colin Green | Queenst University<br>Queenst University (Naster)<br>University of Georgia (Ed.D) | Foundations of Curriculum |
| James Williams | College of Wooster<br>Florida State University (Master)<br>Ed.M Harvard University<br>ED.D Harvard University | - Education and National Development<br>- Policies and Programs in International Education |
| Maria Cseh | Eletronics Engeering<br>Business Administration (Master)<br>Adult Education (PhD) | - Leadership and learnings in Organizations<br>- Organizational Change |
| Scott Joftus | Duke University<br>University of California–Berkeley<br>George Washington University (PhD) | Introduction to Program Evaluation |
| Lionel Howard (Qeyd: *Bu ildən tədris etmir*) | William Paterson University of New Jercy (Bachlor)<br>University of Mariland (Master)<br>Ed.M Harvard University<br>ED.D Harvard University | - Introduction to Qualitative Research<br>- Advanced topic in Educational Statistics |
| Mattew Flanagan | George Washington University, (PhD in special education) | Introduction to Educational Statistics |
| Sevinc Məmmədova | Ganja State University<br>University of Texas at Arlington | Education Policy design |

| | | |
|---|---|---|
| | George Washington University (PhD candidate) | |

Proqramda ADPU tərəfindən cəmi səkkiz müəllim tədris fəaliyyətini həyata keçirir.

| Ad və soy adları | Təhsili və elmi dərəcəsi | Əsas iş yeri | Pedaqoji təcrübəsi |
|---|---|---|---|
| Elmina Kazımzadə | Moskva Dövlət Universiteti, psixologiya<br>Ukrayna Psixoloji Tətqiqat İnstitutu, PhD | BDU, "Gender və tətbiqi psixologiya" kaf. dosenti | 44 il |
| Ülkər Babayeva | ADU, ingilis dili<br>Azərbaycan Dillər Universiteti, Təhsil və linqivistika (Magist)<br>Con Hopkins Universiteti (ABŞ), PhD (DP məzunu) | Təhsil İnstitutunu direktor müavini | 10 il |
| Rüfət Əzizov | Moskva Dövlət Universiteti, PhD<br>Oksford Universiteti (Executive MBA) | SDU-nun rektoru | 14 il |
| Tofiq Əhmədov | BDU, hüquq, Bakalavr<br>Azərbaycan Universiteti, hüquq, Magistr<br>Azərbaycan Universiteti, PhD<br>Honq Konq Universiteti, (DP məzunu) (Master of Education in Higher Education Policy and Management) | ADPU-CVU ikili diplom proqramının baş direktoru | 20 il |
| Yulia Kərimova | BDU, filologiya, Bakalavr<br>Kent Dövlət Universitetindən (Master of Ed. in Curriculum and teaching studies)<br>BDU, doktorant (2012-2014) | "Ağ yelkən" təlim və tədris mərkəzinin təsisçisi və direktoru | 14 il |
| Nicat Məmmədli | BDU, politologiya<br>Qərbi İllinoys Universiteti (Master of Public Policy) | Elm və Təhsil Nazirliyi, nazirin müşaviri | 19 il |
| Elçin Məmmədov | ADNSU (Neft iqtisadiyyatı və idarəetməsi) Bakalavr<br>Qlazqo Universiteti, Master of Financial Forcasting and investment (DP məzun) | NYTN, nazirin müşaviri, transformasiya direktoru | 10 il |
| Tamerlan Rəcəbov | Manchestr-Moskva Universiteti, (Master of Science in Practical SW)<br>Vaşinqton Universiteti (Saint Luis) (M. of Social Work) | UNİCEF, monitorinq şöbəsinin müdiri | 17 il |

Professor-müəllim heyətinin təhsilin aparıcı sahələri istiqamətində çalışması, yəni işə götürən kimi çıxış etmələri onların təhsil aldıqları müddətdə belə əməkdaşlığa cəb etməyə imkan yaradır.

8.1. Təhsil proqramı üzrə akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinatının şəffaf və ictimaiyyət üçün əlçatanlığın təmin olunması vəziyyəti ilə bağlı qeyd etmək istərdik ki, bu ikili diplom proqramında dərs deyən müəllimlərin seçilməsi zamanı açıq elan verilmişdi. Müraciət edən müəllimlər arasında ən uğurlu namizədlər seçilmişdir. Hazırda proqramda dərs deyən müəllimlər öz sahəsi üzrə tanınmış mütəxəssislərdir. Bu da proqramda dərslərin effektiv təşkilinə imkan yaradır.

8.2. Təhsil proqramı üzrə akademik heyətin pedaqoji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarının mövcudluğu vəziyyəti ilə bağlı qeyd etmək istərdik ki, bu proqram spesifikliyi ona ənənəvi yanaşmalardan fərqli qiymətləndirməni tələb edir. Beləki, bu indicator üzrə nəzərə tutulan tələblərin icrası müqavilə əsasında idarə olunan bu proqram çərçivəsində mümkün deyil.

8.3. Təhsil proqramı üzrə akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi vəziyyəti ilə bağlı qeyd etmək istərdik ki, proqramda dərs deyən müəllimlərin hər biri istər ölkədaxili, istərsə də beynəlxalq səviyyəli təlim proqramlarında iştirak etmişlər. Proqramda dərs deyən müəllimlərinin hər birinin ən azı 10 ildən artıq ali təhsil müəssisələrində təlim aparmaq təcrübəsi vardır.

8.4. Təhsil proqramı üzrə akademik heyətə öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştirakı vəziyyəti ilə bağlı qeyd etmək istərdik ki, proqramda təlim keçən professor-müəllim heyəti bir çox ixtisasartırma proqramlarında iştirak etmişlər. İkili diplom proqramı çərçivəsində də müəllimlərin ixtisasartırmasına dair iki təlim proqramı da həyata keçirilmişdir. Proqram çərçivəsində ADPU müəllimlərin CVU da təlimləri nəzər dətutulmuşdur. Öncəki illərdə bu nəzərdə tutulsa da, pandemiya səbəbindən onun həyata keçirilməsi mümkün olmamışdır.

8.5. Təhsil proqramı üzrə akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti ilə bağlı qeyd etmək istərdik ki, bu ikili diplom proqramında dərs deyən müəllimlərin hər biri beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirak etmiş, dünyanın nüfuzlu ali təhsil müəssisələrində təhsil almışlar.

8.6. Təhsil proqramı üzrə akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyəti ilə bağlı qeyd etmək istərdik ki, proqramın daha kiçik sayda olduğunu nəzərə aldıqda burada xüsusi mürəkkəb sistemin yaradılmasına ehtiyac yoxdur. Burada dərs deyən müəlllimlərin əksəriyyəti yaradıcı və innovative tədris bacarıqlarının ölkədə tətbiq edilməsi ilə bağlı təhsil müəssisələrin təlim aparan şəxslərdir. Bununla bağlı onlar bir çox layijələrin rəhbərləəri və iştirakçısı olmuşlar. Bu baxımdan, akademik heyət dərslərində yaradıcı və innovativ tədris metodlarından geniş istifadəsi tədris prosesində geniş şəkildə istifadə müşahidə edilir. Məsələn, tədris prosesin tələbələrin seçdikləri mövzularla bağlı pod castların hazırlanması, youtube kanalın yaradılıb fənlə bağlı kontentin yaradıllması, seçilmiş tədqiqat mövzularına dair data-ların toplanması və təhlil edilməsi, idarəetmə ilə bağlı simulyasiyarın qoyulması, biznes ideyaların inkişaf etdirilməsi və sair.

8.7. Təhsil proqramı üzrə ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti ilə bağlı qeyd etmək istərdik ki, proqramda dərs deyən professor müəllim heyəti öz sahəsi üzrə tanınmış mütəxəssislərdir.

8.8. Təhsil proqramı üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti (1/15) ilə bağlı qeyd etmək istərdik ki, hazırda proqramda 80 nəfər tələbə təhsil alır. ADPU tərəfdən səkkiz, CVU tərəfindən də səəkiz müəllim təlim prosesinə cəlb edilmişdir. Bu da müəllim tələbə nisbtinin 1/5-ə olduğunu göstərir.

8.9. Təhsil proqramı üzrə tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması vəziyyəti ilə bağlı qeyd etmək istərdik ki, bu tələb ona görə təmin edilməmişdir ki, proqramda hər tədris ili üzrə cəmi iki qrup mövcuddur. Bu səbəbdən kifayət qədər olmayan dərs yükünə görə proqramda dərs deyən müəllimlərin əksəriyyətinin əsas iş yeri bu ikili diplom proqramı deyil.

8.10. Təhsil proqramı üzrə kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi ilə bağlı qeyd etmək istərdik ki, bu ikili diplom proqramında dərs yükü kifayət qədər olmadığı üçün professor-müəllim heyətinin tam tədris yükü üzrə proqrama cəlb edilməsi mümükün olmamışdır. Bu səbəbdən bir müəllimdən başqa yeddi müəllim proqrama kənardan saat hesabı müəllim qismində dəvət edilmişdir.

8.1.1. Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi vəziyyəti ilə bağlı qeyd etmək istərdik ki, bu proqramda müəllimlrin dəqiq əməkhaqqı məbləği öncədən bağlanmış müqavilə əsasında Nazirlər Kabineti və Dövlət Neft Fondu ilə razılışdırılmış miqdarda müəyyəən edilmişdir. Bu baxımdan differensiallaşdırılmış əmək haqqının tətbiqi bu proqramın icrası çərçivəsində imkan daxilindədir.

8.12. Təhsil proqramı üzrə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və/və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin mövcudluğu vəziyyəti ilə bağlı qeyd etmək istərdik ki, bu ikili diplom proqramında təlim aparan professor-müəllim heyətinin hamısı dünyanın ən qabaqcıl ali təhsil müəssisələrində təhsil almış, öz sahəsi üzrə ölkədə tanınmış şəxslərdir. Professor-müəllim heyətinin üçü (8 müəllimdən 3-ü) Dövlət Proqramı çərçivəsində xaricdə təhsil almış müəllimlərdir.

Bu meyar üzrə proqramın güclü tərəfi olaraq tələbələ və məzunlar belə qeyd edib ki, bu müəllimlərin seçilməsi ADPU-da təhsilin ümumi keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir edib. ADPU professor-müəllim heyəti tədrisə və öz sahələrinə həvəs qaynağı olaraq çıxış edirlər. Onlar tədris metodlarını müxtəlif öyrənmə üslublarına uyğunlaşıb, hər bir tələbənin inkişaf etmək və tam potensialına çatmaq imkanını təmin edirlər. Bu müəllimləri seçərək ADPU müsbət və təsirli öyrənmə təcrübəsini inkişaf etdirməyə həsr olunmuş bir komanda yaratdı. Onların iştirakı proqramımızın uğuruna və inkişafına mühüm töhfə verir.

Bu meyar üzrə proqramın inkişaf etdirilməyə ehtiyacı olan tərəfi tələbələr tərəfindən qeyd olunmayıb. Müəllimlərdən və onların dərs keçmə və qiymətləndirmə üsülları ilə razı qalırlar.

## 9. Təhsil proqramı üzrə tələbəyönümlü tədris

Təhsil proqramı elə dizayn edilmişdir ki, o müasir təhsil problemlərini hədəfləsin, onların tədrisinə fokuslansın. Proqramın icrası zamanı da onun tələbəyönümlü xarakter kəsb etməsi təmin edilməyə çalışılmışdır. Dərslərin tədrisində professor və müəllim heyətinin effektiv təlim üsulları və texnikalarından davamlı şəkildə istifadə edirlər. Buraya case study-lər, problem-based learning, role-play, qrup işləri və təqdimatlar aiddir. Mütəmadi keçirilən əks əlaqə nəticəsində, tələbələri narahat edən və çətinlik yaradan məsələlər ilə bağlı müəllim-professor heyətinə məlumat verilir və konsensusun yaradılması üçün çıxış yolları təklif olunur.

9.1. Təhsil proqramı üzrə təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi ilə bağlı qeyd etmək istərdik ki, bu ikili diplom proqramının icra olunmasında dissertasiya işinin yazılması və seçmə fənn blokunun olmaması fərdi tədris planlarının tərtib edilməsinə zərurəti aradan qaldırmışdır.

9.2. Təhsil proqramı üzrə tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsi məsələsi ilə bağlı qeyd etmək istərdim ki, bu ikili diplom proqramında məhdud sayda tələbənin təhsil alması və yalnız bir ixtisas üzrə kadr hazırlığı həyata keçirildiyindən, eləcə də bu proqram çəərçivəsində tədris olunacaq dərslərin siyahısı öncədən müəyyən olunduğu üçün seçmə fənlər müəyyən edilməmişdir. Bunun üçün maliyyə resursları da nəzərdə tutulmadığından bu istiqamətdə işlərin təşkil olunması məhduddur.

9.3. Təhsil proqramı üzrə təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsipinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin edilməsi ilə bağlı qeyd etmək istərdik ki, yuxar;da qeyd etdiyimiz kimi, bu ikili diplom proqramında seçmə fənlər nəzərdə tutulmamışdır.

9.4. Təhsil proqramı üzrə tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası ilə bağlı qeyd etmək istərdik ki, təhsilalanlar və məzunlarla bağlı keçirilən sorğular məqsədindən asılı olaraq fərqli olur. Məzunlarla mütəmadi olaraq onların iş və akademik həyatında baş verən yenilikləri öyrənmək məqsədi ilə sorğular keçirilir. Məzunlar bəzən dərslərə yeni qəbul edilmiş tələbələrlə görüşə dəvət olunurlar. Tələbələrlə keçirilən rəy sorğularının əsas məzmunu  onların keçdiyi fənlərin məzmunu, keyfiyyəti, tədrisin müxtəlif aspektlərinin öyrənilməsi ilə bağlı olur.

9.5. Təhsil proqramı üzrə tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası ilə bağlı qeyd etmək istərdik ki, bu Proqram iki universitet arasında bağlanan müqavilə əsasında təşkil olunduğu üçün proqrama tez-tez dəyişikliklər etmək mümükün deyil. Lakin tələbə və məzunların rəylərinin öyrənilməsi ilə tədrisin təşkilində dəyişikliklərin edilməsi təcrübəsindən geniş şəkildə istifadə olunur. Bundan əlavə, təhsilalanlar müxtəlif tədbirlərin keçerilməsini təklif edə, bu prosesdə təşkilatçı kimi də çıxış edə bilirlər. Tələbələrin fikir və rəyləri Proqramın Rəhbər Komitəsinə çıxarılır və müzakirə edilir.

9.6. Təhsil proqramı üzrə tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə proesesində istifadə edilməsi vəziyyəti ilə bağlı qeyd etmək istərdik ki, bu proqramda tələbə-müəllim-proqram idarə heyəti arasında elə sıx və səmimi münasibət formalaşmışdır ki, tələbə rəyləri demək olar ki, gündəlik prosesdə toplanır, təhlil edilir və müvafiq zəruri tədbirlər/korrektələr edilir. Paralel olaraq tələbələrin performansı, fənni neə mənimsəmələri barədə müllimlərdən demək olar ki, hər bir tələbə ilə bağlı rəylər toplanır. Bundan əlavə, hər semestrin sonunda tələblərin rəyləri sorğu formasında öyrənilir və proqram idarəetməsində nəzərə alınır.

9.7. Təhsil proqramı üzrə təhsilalanların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin mövcudluğu ilə bağlı qeyd etmək istərdik ki, bu Proqramda oxuyan tələbələr öz hüquqlarını kifayət qədər yaxşı bilən təcrübəli təhsil işçiləri olduğu üçün öz şikayət və təkliflərini sərbəst şəkildə ifadə etməkdə heç bir çətinlik yaratmırlar. Proqram səviyyəsində olan şikayət və təkliflərin ilk öncə tələbələrin fərdi görüşə dəvət edilməsi ilə problemlərin dinlənilməsiilə həyata keçirilir. Adətən qiymət, müəllimlərin tələbkarlığı ilə bağlı olan şikayətlər daha sonra müəllimlərin dinlənilməsi, məsələnin araşdırılması və ehtiyac yaranarsa şikayətçi tələbələrin iştirakı ilə müəllimlərin birgə görüşü təşkil olunur. Bu Proqram Dövlət Proqramı çərçivəsində olduğu üçün tələbələr təkcə proqram rəhbərliyinə deyil, DPİQ-ə, ETN-ə, ADPU rektorluğuna da onları narahat edən məsələlərlə bağlı müraciət edə bilirlər.

9.8 Təhsil proqramı üzrə təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutor) mövcudluğu vəziyyəti ilə bağlı vurğulamaq istərdik ki, proqramın icrası üçün ilkin mərhələdə akademik məsləhətçi nəzərdə tutulmamışdır. Bu baxımdan təhsilalanların inkişafı, onların akademik problemlərinin vaxtında həll edilməsi üçün əsas işləri proqram direktorları icra edir. Bu istiqamətdə tələbələr elə bir sıxıntı hiss etməmişlər. Yeni ildən müqaviləyə edilən dəyişikliklə akademik məsləhətçi vəzifəsi üzrə şəxsin cəlb edilməsi nəzərdə tutulur.

9.9 Təhsil proqramı üzrə tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti ilə bağlı olaraq vurğulamaq istərdik ki, proqramda ilkin olaraq akademik tyutor ştata nəzərədə tutulmadığından bu işi də proqram rəhbərləri icra etmişlər. Tələbələrin proqram rəhbəri olaraq sərbəst kommunikasiya imkanları mövcuddur. Bu həm üzbəüz, həm də online formatda keçirilə bilir.

9.10 Təhsil proqramı üzrə sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyəti ilə bağlı onu qeyd etçək istərdik ki, tədris Təhsil İnstitutunun Təhsil Texnologiyaları Mərkəzində təşkil edildiyindən və bina ADPU-nun balansında olmadığı üçün hüquqi və maliyyə baxıımından bu tədris binasına kapital qoyuluşu və xərcləmələrin həyaata keçirilməsinin mümükün olması bir sıara problemlər yaradır. Lakin buna baxmayaraq istər ADPU, istərsə də Tİ bir sıra zəruri dəstək saxlamağa çalışırlar. Beləki ötən il müraciətimiz əsasında TTM-ə pandusun qoyuulması təmin edildi. Bu da ssağlamlıq imkanları məhdud olan şəxslərin tədris binasından kimsəyə ehtiyac olamadan istifadə etməyə imkan yaratmış olur. Proqramda CVU tərəfdən dərs deyən müəllimlərdən birinin əlil arabasından istifadə etdiyindən onun binaya rahat daxil olmasında heç bir maneəyə olmur.

9.11 Təhsil proqramı üzrə sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlılığı vəziyyəti ilə bağlı qeyd etmək istərdik ki, qanunvericiliyə əsasən məcburi köçkün və qaçqın statusuna malik üç tələbə təhsil haqqını ödəməkdən azad edilmişdir. Bundan əlavə, təhsil haqqını ödəyə bilməyən tələbələrə təhsil haqqını hissəli əsasda ödəməyə imkan verilir.

Bu meyar üzrə proqramın güclü tərəflərindən biri elə onun tələbəyönlü olmasıdır. Proqramın ABŞ_ın tanınmış universietetlərindən olan CVU ilə birgə həyata keçirilməsi, ADPU tərəfdən də dərs deyən müəllimlərin Qərbin tanınmış universitetlərindən məzun olması proqramın müəllim mərkəzli deyil, tələbəyönlü olmasını şərtlndirən əsas amillərdən biridir.

Bu meyar üzrə proqramın inkişaf etdirilməyə ehtiyacı olan tərəfi, tələbə məzunlar belə düşünür ki, tələbələrə dərslərdə aparıcı rollarını daha da artırmaq (onlara dərsləri aparmaq imkanı vermək) onların liderlik və təqdimat bacarıqlarını daha yaxşı inkişaf etdirməsinə imkan yaratmış olar. Eyni zamanda tələblərin dərslərin məzmununu tam mənimsədiklərini nümayiş

etdirmək və ünsiyyət bacarıqlarını artırmaq üçün təqdimatlar, videolar və bloglar yaradılmasına həvəsləndirməkdir tələbəyönlü tədrisin daha da gücləndirilməsinə xidmət etmiş olar. Qeyd edək ki, bu aspektlərin bir çoxu dərslərdə tətbiq edilsə də heç də bütün tələbələr bu rolu üstənməyə hazır və həvəsli görünmürlər.

## 10. Təhsil proqramının monitorinqi

10.1. Təhsil proqramlarının monitorinqi strategiyasının və fəaliyyət planının mövcudluğu barədə qeyd etmək istərdik ki, təhsil proqramında təhsilalanların az sayda olması, tədris olunana fənlərin sayının çox olmaması onların idarə olunamasında hərtərəfli monitorinq aparmağa imkan yaradır. Bundan əlavə, ikili diplom proqramı Dövlət Neft Fondu tərəfindən maliyyəlşdirildiyi üçün Proqramın icrası ilə bağlı bütün zəruri sənədlər Dövlət Proqramının idarəetmə Qrupuna və Neft Fonduna təqdim edilir. Bu baxımdan proqramın monitorinqi və icrası aylıq, rüblük, altı aylıq və illik hesabatların təqdim edilməsi ilə mütəmadi olaraq monitorinq edilir. Bura həm təhsilin təşkili və idarə olunması, həm də maliyyə vəsaitlərinin alınması və xərclənməsinə dair sənədlərin təqdim ediməsi formasında həyata keçirilir.

10.2. Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarına dair qeyd etmək istərdik ki, bunun üçün ilk növbədə sillabuslar tərtib edilərkən onun təlim nəticələrinə uyğun olmalarına diqqət yetirilir. Təlim nəticələrinə uyğun tədris prosesinin təşkil edilməsi, tapşırıqların təlim nəticələrinin əldə edilməsinə hədəflənməsi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan sillabuslar hazırlanarkən müəllimlərlə bu barədə müzakirələr keçirilir. Hər tədris ilinin sonunda tələbələrdən alınan əks əlaqələr vasitəsi ilə sillabusların təkmilləşdirilməsi işləri aparılır.

10.3. Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə tövhəsinin qiymətləndirilməsinin aparılması ilə bağlı qeyd etmək istərdik ki, daxili keyfiyyət təminatı ilə gündəlik əsasda işlərin aparılması, tələbələrin performansı və professor-müəlllim heyəəti ilə bağlı aparılan mütəmadi müzakirələr proqramın davamlı təkmilləşdirilməsinə imkan yaradır.

10.4. Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması ilə bağlı indikatora cavab olaraq qeyd etmək istərdik ki, Proqramın icrası ilə bağlı, aylıq, rüblük və illik əsasda istər proqramın icrası ilə bağlı özünütəhlil hesabatı, istərsə də Proqramın maliyyələşdirilməsi və onun icrasına dair monitorinq hesabatları Dövlət Proqramlarının İdarəetmə Qrupuna təqdim edilir.

Bu meyar üzrə proqramın güclü tərəfi ondan ibarətdir ki, proqramda təhsil alan tələbələrin sayı və qruplar çox olmadığı üçün orada geniş monitorinq alətlərindən istifadə etmək mümkün olur. Hər bir tələbə və onun tədris prosesdə iştirakı ilə bağlı fərdi məlumat belə toplamaq imkanı olur. Odur ki, proqramda monitorinq alətlərindən geniş şəkildə istifadə olunur.

Bu meyar üzrə proqramın inkişaf etdirilməyə ehtiyacı olan tərəfi olaraq tələbə və məzunlar belə hesab edir ki, mövcud olan proqram monitorinqindən əlavə bu sahədə xarici ekspertlərin qiymətləndirməsinin təşkili ola bilər. Belə hesab oluna bilər ki, xarici qiymətləndirmələr proqramın güclü və zəif tərəfləri haqqında obyektiv perspektiv təmin edə bilər.

## 11. Təhsil proqramının davamlı təkmilləşdirilməsi və yenilənməsi

11.1. Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyətinə dair qeyd etmək istərdik ki, Proqramın dördüncü tədris ili olduğundan onun həyata keçirilməsində və icra olunmasında ciddi bir dəyişiklik olmamışdır. Lakin tədris olunan fənlərin mütəmadi olaraq təkmilləşməsi işləri həyata keçirilir. Sillabusların yenilənməsi, tələbələrin tədris olunan mövzuları daha yaxşı anlaması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir.

11.2. Təhsil proqramının təkmilləşdirilməsi və yenilənməsində nüfuzlu ali təhsil müəssisələrinin proqramlarına istinad vəziyyətinə dair qeyd etmək istərdik ki, sözügedən ikili diplom proqramı tərtib edilərkən onun məzmunu, tədris olunan fənlər nüfuzlu ali təhsil müəssisələrinin müvafiq proqramlarına uyğun tərtib edilmişdir. Tərəfdaş Corc Vaşinqton Universiteti bu sahədə tanınmış ali təhsil müəssisələrindən biri kimi proqrama beynəlxalq təcrübənin gətirilməsini imkan yaratmışdır. ADPU tərəfindən Proqramda dərs deyən müəllim də dünyanın aparıcı ali təhsil müəssisələrinin məzunları olduğu üçün tədris prosesində qabaqcıl beynəlxalq tərübənin tətbiqi hər zaman diqqət mərkəzində olur. Professor-müəllim heyəti dərslərin nəzəri kontekstlə yanaşı, Azərbaycan təhsilinin reallıqlarının, problem və perspektivlərinin müzakirəsinə xüsusi diqqət edirlər.

11.3. Təhsil proqramının yenilənməsinə maraqlı tərəflərin cəlb olunması vəziyyətinə dair qeyd etmək istərdik ki, Proqram tərtib edilərkən Elm və Təhsil Nazirliyinin, Təhsil İnstitutunun, Azərbaycan Dövlət Pedaqoji Universietinin birgə əməkdaşlıq formasında tərtib edilmişdir. Bu baxımdan, bu ikili diplom proqramı formalaşdırılarkən maraqlı tərəflərin prosesdə iştirakı təmin edilmişdir. Təhsialalanların rəyləri əsasında sillabusların hər tədris ilində yenilənməsi həyata keçirilir. Hesab edilik ki, 2019-2023-cü illər üçün həyata keçirilməsi nəzərdə tutulan bu ikili diplom proqramının uzadılacağı halda təhsil proqramının nəticələrinin təhlil edilərək onun yenilənməsini haqda düşünmək daha doğru olardı.

Bu meyar üzrə proqramın güclü tərəfi ondan ibarətd ki. Bu ikili proqram bu sahə üzrə dünyada tanınmış, təcrübəli tərəfdaş universitetlə birgə həyata keçirilir. Bu baxımdan beynəlxalq təhsil təcrübsinin proqrama gətirilməsi imkanları genişdir.

Bu meyar üzrə proqramın inkişaf etdirilməyə ehtiyacı olan tərəfi ondan ibarətdir ki, proqram konkret bir çərçivədə - 2019-2023-cü illər ərzində həyata keçirilən Dövlət Proqramı çərçivəsində icra edildiyi üçün onun nəticələrə/ehtiyaclara uyğun olaraq zamanla dəyişdirilməsi, icrasında çevikliyin təmin edilməsi və bunların tez bir zamanda həyata keçirilməsi imkanları limitlidir. Proqram uzadıldığı halda bu kimi məsələlərə baxıla bilər. Proqram daha geniş və əhatəli yazılmaqla Azərbaycan ali təəhsilində rəqabətqabiliyyətliliyin təmin olunmasına daha geniş imkan yaratmış olar.

## 12. Təhsil proqramı üzrə təhsilalanlara karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi

12.1. Təhsil proqramı üzrə tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyətinə dair qeyd etmək istərdik ki, Proqramda təhsil alan tələbələrin istər təhsil nailiyyətlərinin, istərsə də karyera inkişafı üçün fərdi qaydada mütəmadi işlər aparılır. Elm və Təhsil Nazirliyi və onun tabeliyində olan qurumlarla aparılan işlər nəticəsində proqramın məzunu olan şəxslərin bu qurumlarda çalışması üçün praktik işlər həyata keçirilir. Proqram çərçivəsində tələbələr və məzunlar ilə yaradılan sosial şəbəkə qruplarında mütəmadi olaraq

mövcud vakansiyalar barəsində məlumat verilir. Məzunlar haqqında yaradılmış məlumat bazası davamlı şəkildə yenilənir və hər il yenilənmiş məlumatlar DPİQ və ETN-in müvafiq bölmələri ilə paylaşılır.

12.2 Təhsil proqramı üzrə məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyətinə dair qeyd etmək istərdik ki, hazırda proqramda cəmi 42 məzun olduğu üçün bütün tələbələrlə istər fərdi, istərsə də qrup ünsiyyətinin nəticəsi olaraq mütəmadi olaraq əlaqələr saxlanılır. Hər bir qrup üzrə işlək whatsapp qruplar tələbələr məzun olduqdan sonra da aktiv olaarq istifadə edilir. Məzunların Linkedin hesabları izlənilməklə onların karyera sahəsindəki uğurları müşahidə edilir. Proqramın tələbə və məzunları arasında daimi əlaqənin təmin edilməsi və onların cəmiyyətə tanıdılması üçün Məzunların uğurları başlığı altında məlumatlar proqramın sosial media hesabında paylaşılır.

12.3 Təhsil proqramı üzrə məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyətinə dair qeyd etmək istərdik ki, 12.2. bəndində də qeyd etdiyimiz kimi, proqram məzunları ilə qurulmuş effektiv ünsiyyət nəticəsində proqramın onların peşəkar inkişafına, səriştələrin yaratmasına tövhəəsi barədə müzakirələr aparılır, onların fikirləri dinlənilir, proqramdan məmnunluq səviyyəsi öyrənilir. Məzun olduqdan sonra müəyyən bir müddətin keçməsi onlarda proqram ərzində öyrəndiklərini daha yaxşı dəyərləndirməyə, keçdiklrin hər fənn daxilində qazandıqları səriştələrin onların professional karyerasına daha müsbət təsir etdiyini öyrənmiş oluruq. Keçirilən anket sorğusu ilə yanaşı, hər bir məzunla olan şəxsi ünsiyyət və məzun qrupları ilə kommunikasiya vasitələri, eləcə də məzunların görüşlərə dəvət olunması vasitəsi ilə onların proqramdan məmnunluq səviyyəsi barədə mütəəmadi məlumatlar əldə edilir. Bir çox halda sadə anket sorğularını doldurmağa tənbəllik edən məzunlar, şəxsi ünsiyyət və görüş zamanı səmimi mühitdə proqramda öyrəndiklərinin onlara həyatada nə qədər faydalı olduğunu ifadə etmiş olurlar. Bu istiqamətdə də tələbələr fərdi diqqət və yanaşmaya üstünlük verirlər.

12.4 Təhsil proqramı üzrə məzunlarla davamlı əlaqə sisteminin mövcudluğu vəziyyətinə dair qeyd etmək istərdik ki, yuxarıda da qeyd etdiyimiz kimi, məzunlarla həm məzun qrupu, həm də fərdi səviyyədə davamlı əlaqə saxlanılır. Bunun üçün işlək kommunikasiya vasitələri mövcuddur. Proqramın sosial media səhifsində tələbə və məzunlar barədə mütəmadi məlumatlar paylaşılır, onların karyera inkişafı ilə bağlı yeniliklərə dair bir-birləri barədə məlumat əldə etmiş olurlar. Sistemli şəkildə hər il onların iş yerləri ilə bağlı hansı yeniliklərin olması barədə məlumatlar yenilənərək ETN-in müvafiq strukturları ilə paylaşılır. Hesab edirik ki, davamlı əlaqə sistemi üçün ən mühüm cəhət məzunlarla yaradılan səmimi münasibətin və etimad mühitinin yaradılmasıdır ki, bu da keyfiyyətli ünsiyyəti və davamlı əlaqələri təmin etmiş olur. Bu istiqamətdə əlaqələrin qorunub saxlanılmasına və inkişafına çalışırıq.

Bu meyar üzrə proqramın güclü tərəfi ondan ibarətdir ki, proqramda təhsil alan tələbələr təhsilə başlayarkə artıq təhsil sistemində və digər müvafiq strukturlarda çalışmış olurlar. Proqramda dərs deyən müəllim təhsil sahəsində tanınmış mütəxəssislər və potensial işə götürənlər olduğu üçün təhsilalanların karyera yüksəlişində, yeni iş tapmalarında onlara dəstək olurlar. Mütəmadi olaraq təhsil sahəsində çalışan tanınmış mütəxəssislərlə proqram tələbələrinin görüşməsi, müzakirələrin təşkili, tədris səfərlərinin təşkil olunması onların dünyagörüşünün genişlənməsinə imkan yaradır.

Bu meyar üzrə proqramın inkişaf etdirilməyə ehtiyacı olan tərəfi kimi hesab edirik ki, ETN-in müvafiq strukturları və digər aparıcı təhsil təşkilatları ilə əlaqələri genişləndirməklə onların ehtiyaclarının kadr hazırlığı prosesində nəzərə alınmasıdır. Təəsüf olsun ki, keçirilən bir sıra görüşdə bu sahədə kadr hazırlığında onların konkret olaraq hansı bacarıqlara malik şəxsləri axtardığına dair ətraflı məlumat əldə edə bilməmişik.

Əlavə olaraq bu məyarda nəzərdə tutulan hədəflərə nail olmaq üçün tələbə və məzunlar təklif edir ki, təcrübə və imkanları bölüşmək məqsədi ilə məzunları bir araya gətirən müntəzəm şəbəkə tədbirləri təşkil edilməsi, karyera səyahətlərini və məsləhətlərini bölüşə bilən uğurlu məzunların iştirak etdiyi vebinarlar və panel müzakirələri təşkil edilməsi, profilləri, əlaqə məlumatları və cari mövqeləri daxil olmaqla məzunların onlayn kataloqunu yaratmaq və yeniləmək, məzunlar və hazırkı tələbələr arasında davamlı ünsiyyəti asanlaşdıran onlayn platforma yaratmaq faydalı olardı. Bu sahədə əsas çətinlik resurs azlığı olsada, hesab edirik ki, bunu təmin etmək istiqamətində çalışmalar həyata keçirilə bilər. Bir neçə dəfə bu təşəbbüsün tələbələr tərəfindən icra edilməsi təklif və müzakirə edilsə də, onların işlərinin çoxluğu, tələbə və məzunların bu işə çox da maraq göstərməməsi səbəbindən bu yöndə ciddi nəticələr hasil olmamışdır.

**4. Təhsil proqramının özünütəhlil nəticələri**

| Meyarlar | Yekun Bal | Uyğun deyildir | Qismən uyğundur | Əsasən uyğundur | Uyğundur |
|---|---|---|---|---|---|
| 1. Təhsil proqramı üzrə təhsilalanların qəbulu | | | | | * |
| 2. Təhsil proqramı üzrə əvvəlki kvalifikasiyaların tanınması | | | | | * |
| 3. Təhsil proqramı üzrə tədrisin təşkili | | | | | * |
| 4. Təhsil proqramı üzrə tətbiq olunan tədris metodları və üsulları | | | | | * |
| 5. Təhsil proqramı üzrə istifadə olunan təlim və tədris resursları | | | | | * |
| 6. Təhsil proqramı üzrə tələb olunan təhsil infrastrukturu və maddi-texniki baza | | | | * | |
| 7. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi | | | | | * |
| 8. Təhsil proqramına cəlb olunan professor-müəllim heyəti | | | | | * |
| 9. Təhsil proqramı üzrə tələbəyönümlü tədris | | | | | * |
| 10. Təhsil proqramının monitorinqi | | | | | * |
| 11. Təhsil proqramının davamlı təkmilləşdirilməsi və yenilənməsi | | | | | * |
| 12. Təhsil proqramı üzrə təhsilalanlara karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi | | | | | * |
| **Təhsil proqramı üzrə akkreditasiya qiymətləndirilməsinin yekun nəticəsi** | | | | | * |

## 4. Təşkilat komissiyasının gəldiyi nəticə və qeydlər

Təşkilat komissiyasının gəlmiş olduğu nəticə bundan ibarətdir ki, təqdim edilən qiymətləndirmə meyarları ikili diplom proqramları üzrə qiymətləndirmənin özünəməxsusluğunu, spesifikliyinə uyğun olmadığı üçün burada bir sıra fərqlər və uyğunsuzluqlar meydana çıxır. Azərbaycan ali təhsil müəssisələrində ixtisaslar üzrə təhsil proqramları və onların icrası vahid yanaşma, normativ baza əsasında həyata keçirildiyi halda, ikili diplom proqramların icrası iki universitet arasında imzalanna müqavilə əsasında icra edilir. Bu baxımdan, bu təhsil proqramının qiymətləndirilməsində onun təsis edildiyi müqavilədən irəli gələn öhdəliklər, tərəfdaş Corc Vaşinqton Universitetinin təhsilin təşkilinə və idarə olunmasına dair yanaşması nəzərə alınmalıdır. Eyi zamanda, nəzərə alınmalıdır ki, CVU özəl universitet olaraq özünə aid sənədlərin paylaşılması və üçüncü tərəfə ötürülməsini müqavilə şərti olaraq məhdudlaşdırmışdır.

Təşkilat komissiyası eyni zamanda akkreditasiyaya hazırlaşmağa, özünütəhlil hesabatını yazmağa cəmi bir aylıq müddətin verilməsini, qanunvericilik tələblərinə görə bu barədə ən azı altı ay öncə məlumat verilməlidir, dərin və hərtərəfli təhlil aparılmaq və proqramın bütün üstün tərəflərinin göstərilmək, çalışmaların daha yüksək səviyyədə təşkil olunması baxımından ciddi məhdudiyyətlər yaratmışdır.

ADPU-CVU ikili diplom proqramı AR Prezidentinin "2019-2023-cü illlərdə Azərbaycan ali təhsilinin rəqabətqabiliyyətliliyinin artırılması" üzrə Dövlət Proqramı çərçivəsində həyata keçirilir. Proqramın icrasına dair müqavilə 30 yanvar 2020-ci ildə ADPU-nun rektoru prof. Cəfər Cəfərovla CVU Təhsill Siyasəti və İnsan İnkişafı Məktəbinin dekanı Dr.Maykl Foyer arasında imzalanna müqavilə əsasında icra edilməyə başlamışdır. Müqavilə bağlanandan 1 ay sonra bütün dünyanı bürüyən COVİD-19 pandemiyasının başlaması proqramın ilk tədris ilinin online əsasda təşkil olunmasına səbəb olmuşdu. Bu da bütün dünyada olduğu kimi bu proqramının icrasına da müəyyən çətinliklər yaratmışdı. CVU professorları 3 semestr müddətində Azərbaycana səfər edib, canlı tədris prosesində iştirak edə bilməmişdilər.

Özünütəhlil hesabatınn hazırlanmasına cəlb edilən iki tələbə və iki məzunun (10 nəfərdən 4-ü) cəlb edilməsi bu özünütəhlil hesabatının tələbəyönlü olması qənaitinə gəlməyə əsas yaradır. Beləki, onlar hesabatının məzunu, meyar və indikatorlar üzrə nəticələrin təhlil edilməsinə və son redaktəsi prosesində aktiv şəkildə iştirak etmişlər. Onlar hesabatının real təhsil mühiti barədə aydın mənzərə yaratdığı qeyd etmişlər. Xüsusən hər bir meyar üzrə proqramın güclü və inkişafa ehtiyacı olan aspektlərinin yazılmasında tələbə və məzunların rəyləri əsas götürülmüşdür. Tələbə və məzunlar belə hesab edirlər ki, məhdud resurslara baxmayaraq ADPU dərslərinin keyfiyyəti və proqramın idarə olunması bütün mühüm keyfiyyət tələblərinə cavab verir. Beynəlxalq təcrübəyə əsaslanan CVU dərsləri ilə yanaşı ADPU fənləri onların inkişafında və təhsil sahəsində mütəxəssis olaraq hazırlanmasında milli və yerli kontekstlə bağlı praktik bilik və təcrübə qazandırır. Bu mənada CVU dərsləri ilə ADPU dərsləri bir-birlərini tamamlamaqla tələbələrin əmək bazarına daha güclü mütəxəssis olaraq hazırlamağa imkan yaradır.

İkili diplom proqramının Dövlət Proqramı çərçivəsində həyata keçirilməsinin bir sıra üstünlükləri və çatışmazlıqlarını qeyd etməyə ehtiyac var. Belə ki, bu təhsil proqramının Dövlət Proqramı çərçivəsində həyata keçirilməsi onun dövlət hesabına Neft Fondu tərəfindən maliyyələşməsi amerikan təəhsil modelinin Azərbaycana gətirilməsi və burada təhsil sistemində çalışan şəxslər üçün əlçatan olması baxımından mühüm əhəmiyyət kəsb edir. Çatışmazlıqdan biri isə tərəfdaş universitetə daha üstünlüklərin və imtiyazların tanınması proqramın icrasında çətinliklər yaradır. Beləki, qarşı tərəf yerli qanunvericilik tələblərinə uyğunlaşmaqda çətinlik çəkir və ya özünü buna borclu bilmir. Bu baxımdan ikili diplom proqramının idarə olunması bir çox mürəkkəb tərəfləri də vardır. Belə ki,

Proqramın maraqlı tərəfləri fərqli olduğu üçün onun idarəetməsi, qərarların qəbulu prosesi də fərqli formata malikdir. İkili diplom proqrama ADPU və CVU-nun hər birindən dörd nəfər olmaqla Rəhbər Komitə rəhbərlik edir. Rəhbər Komitənin görüşləri ən azı ildə iki dəfə təşkil olunmaqla proqramın idarə olunması ilə bağlı mühüm qərarları qəbul edir, yeni maliyyə ili üçün büdcəni təsdiq edir. Digər müddət ərzində ADPU-da və CVU-da olan proqram rəhbərləri korrdinasiyalı şəkildə proqramın effektiv qaydada icra olunmasını təmin etmiş olurlar.

Bu təhsil proqramının Dövlət Proqramı çərçivəsində həyata keçirildiyi üçün iki universitet arasında bağlanan müqaviləyə hər hansı kiçik dəyişiklik yaxud əlavələrin edilməsi müxtəlif dövlət strukturları ilə (DPİQ, ETN, NF və sair) uzun müddətli yazışma, anlaşma prosedurlarının keçilməsini tələb edir. Bu proses ən yaxşı halda 5-6 aylıq müddət tələb edir. Burada digər bir çətinlik proqramın maliyyələşməsi ilə bağlı amerikan tərəfdaş universitetin Azərbaycanda maliyyə-uçot sisteminin tələblərinə uyğun sənədləri vaxtında və operativ qaydada təqdim edə bilməməsidir. Bu baxımdan, milli proqramlardan fərqli olaraq maliyyə-sənədləşmə işləri həddən artıq çox zaman və enerji tələb edir. Bu da kiçik proqram heyətinin vaxtının çox hissəsini almış olur.

Proqramın maliyyəsinin 93%-i CVU, cəmi 7%-i ADPU-dakı təhsilin maliyyələşməsinə aid olsa da, bu 7%-in də əhəmiyyətli hissəsi Bakıya gələn CVU heyətinin xərclərinin qarşılanması üçün xərclənir. Bu baxımdan Azərbaycan ali təhsilinin rəqabətqabiliy-yətliliyinin artırılması məqsədi ilə təsis edilmiş bu proqram daha zəif potensiala malik olan yerli təhsil müəssisəsinə daha az vəsaitin ayrılmasına və onun fəaliyyətinin daha az dəstəklənməsinə xidmət edir. Halbuki, CVU dərsləri daxil bütün təhsil proqramda bütün fəaliyyət ADPU-da həyata keçirilir. Özünütəhlil hesabatında iştirak edən tələbə və məzunların bu fikri də əlavə etməyi xahiş edtlər ki, tədris tədrisi və keyfiyyəti CVU-dan geri qalmır, əksinə bir çox halda ondan da üstündür.

Proqram məzunlarının dəstəklənməsi, eləcə də ETN strukturlarına hansı potensiala uyğun kadrların lazım olduğunu öyrənmək imkanları geniş olsaydı, kadr hazırlığında daha praktik adımlar atmaq mümkün olardı. Təhsil siyasəti və idarəetməsi ilə bağlı milli müstəvidə məhz hansı kompetensialara uyğun kadrların lazım olması ilə bağlı konseptual yanaşmanın olmaması yaxud bizə bildirilməməsi bəzi çətinliklər yaradır.

Lakin bütün bunlara baxmayaraq hesab edirik ki, Proqramın əsas uğuru proqramın məzunlarıdır. Onların bir qismi istər Elm və Təhsil Nazirliyində və ona tabe olan qurumlarda, eləcə də digər mərkəzi aparatlarda məsul vəzifələrə təyin olunmuşlar. Bu Proqrama və onun məzunlarına olan etimadın nəticəsidir. Məzunlarla keçirilən görüşlər və sorğular onu deməyə əsas verir ki, onların proqramdan məzun olduqdan sonra özlərində ciddi inkişaf və dəyişikliklər müşahidə etmişlər. Məzunların bir çoxu yeni iş və təhsil imkanları əldə edərək təhsil proqramından öyrəndiklərini praktikada tətbiq etmək imkanlarını reallaşdırmağa çalışırlar. Hazırda 41 məzundan 10 nəfər Elm və Təhsil Nazirliyi, eləcə də ona tabe Agentliklərdə çalışır. Digər 10 nəfər təhsil müəssisisələrində (məktəb, universitet), özəl sektorda 14 nəfər, digər dövlət qurumlarında 2 nəfər, xarici təşkilatlarda 5 nəfər çalışır. Xaricdə doktorantura və magistraturada təhsil alanlar 5 nəfərdir (onlardan ikisi Dövlət Proqramı çərçivəsində). 5 məzun isə Azərbaycanda doktoranturada təhsilini davam etdirilər. Məzunlardan 2 nəfər isə xaricə köçmüşdür. Proqrama qəbul olan tələblərdən 2 nəfər proqramı bitirmədən hazırda təhsilini xarici təhsil proqramlarından davam etdirirlər.

Proqramda təhsil alan tələblərin yaş aralığı 21 yaşdan yaşdan 55 yaşadək dəyişir. Bu səbədən onların çoxu artıq təhsil sahəsində artıq uzun illər təcrübəsi olan şəxslərdir. Təhsil sahəsi ilə bağlı kifayət qədər təcrübəlri olduqları üçün bu faktor onlarla tədrisin daha faydalı və məzmun yönlü təşkil olunmasına imkan yaradır. Bir tərəfdən bu üstünlük

olsa da, digər tərəfdən onun yaratdığı çətinlik ondan ibarətdir ki, tam ştatda çalışan və ailə məsuliyyəti olan tələbələr üçün tədrisə kifayət qədər zaman ayırmaq imkanları məhdud olur. Bu da onların daha güclü mütəxəsis hazırlığı üçün əlavə məhdudiyyətlər yaradır.

Adətən ADPU dəsləri həftə ərzində 2-3 olmaqla 18-20 nəfərlik qruplarda təşkil olunduğu halda, CVU dərsləri 2 həftə ərzində 4-5 dəfə keçirilməklə tamamlanır. Bu şərt ikitərəfli Müqavilədə də qeyd edilmişdir. Bu da tam ştatda çalışan tələblər üçün müəyyən gərginliklər yaradır. Tələbər eyni zamanda CVU tərəfindən dərslərinin 40 nəfərlik tələbə heyəti ilə bir qrupda təşkil olunmasını da effektiv hesab etmirlər. Bu barədə Rəhbər Komitə görüşlərində bir neçə dəfə müzakirə açsaq da, CVU bunun üçün kifayət qədər əlavə resursa sahib olmadıqlarını qeyd etmişlər. Bu istiqamətdə müzakirələrin növbəti Rəhbər Komitədə qaldırılmasının tövsiyə edilməsi da komissiyanın gəlmiş olduğu nəticələrdən biridir.

İkili diplom Dövlət Proqramlarının zəif tərəfi proqram davamlılığı ilə bağlı bir sıra qeyri müəyyənliyin olmasıdır. Belə ki, proqramın icrası 2019-2023-cü illər Dövlət Proqramı ilə çərçivələndiryi üçün növbəti illərdə onun davam etdirilib-etdirilməməsi məsələsi hələ də qeyri-müəyyəndir. Müqavilənin uzadılması və yeni qəbulun həyata keçirilməsi yalnız Dövlət Proqramı ilə tənzimlənən məsələ olduğu üçün burada ADPU həlledici rola malik deyil. Amma təbii ki, ADPU bu ikili diplom proqramının uzadılması və əməkdaşlığın genişləndirilməsində olduqca maraqlıdır. Bu baxımdan, məsələnin ETN-in diqqətinə çatdırılması və müvafiq dəstəyin istənilməsi tövsiyə olunur.

Komissiyanın yekun olaraq gəlmiş olduğu nəticələrdən biri də ikili diplom proqramı çərçivəsində tətbiq olunann müsbət təhsil təcrübəsinin, yeni bilik və bacarıqların ADPU-nun digər proqramlarına tətbiq edilməsi təcrübəsinin zəif olmasıdır. Bu istiqamətdə vəziyyətin yaxşılaşdırılması üçün ADPU müvafiq rəhbər strukturları ilə müzakirələrin aparılması, tələbə və məzunların ADPU-ya əməkdaşlığa cəlb edilməsi, onların universitetin inkişafına tövhə verməsinə imkanın yaradılması üçün müvafiq dəstəyin artırılması tövsiyə olunur.

Sonda təşkilat komissiyası belə bir nəticəyə gəlmişdir ki, ADPU-CVU ikili diplom proqramının proqram akkreditasiyası üçün müəyyən edilmiş meyarlara cavab verməsi, qısa müddət ərzində ciddi uğurlar əldə etməsi, məzunlarının təhsil sahəsində qabaqcıl vəzifələrə təyin olunması, Azərbaycanda təhsil sahəsində müasir kadr hazırlığında uğurlu nəticələr əldə etməsi, ən nəhayət ADPU-nun ən qabaqcıl təhsil proqramı olması və onun inkişafına mühüm tövhə verməsi baxımından yüksək nəticə ilə növbəbi müddətə akkreditasiya olunması akkreditasiya komissiyasına tövsiyyə olur.

Ali təhsil müəssisəsi Təhsil Proqramı və hər fənn üzrə gözlənilən təlim nəticələrini müəyyən etməlidir. *Aşağıdakı cədvəllərdə ən azı 6 təlim nəticəsi sadalanmalıdır (Təhsil Proqramı və hər fənn üzrə ayrılıqda)*

| **Təhsil Proqramının təlim nəticələri (PTN)** |
| --- |
| PTN 1 Təhsil siyasəti və idarəetməsi üçün təhlil toplamaq və inkişafı dəstəkləmək üçün əsaslı dəlil toplamaq və yaratmaq (sübutlar toplamaq, anlayışları inkişaf etdirmək və qiymətləndirmə kompetesiyaları) |
| PTN 2 Sübutların qiymətləndirilməsi üçün analitik çərçivələri və üsulları tətbiq etmək (analiz kompetesiyaları) |
| PTN 3 Təhsil siyasəti və idarəetməsinə dair konsepsiyalar və modellər formalaşdırmaq üçün uzunmüddətli və geniş sistemli perspektivləri birləşdirmək (strateji və yaradıcı düşüncə kompetesiyaları) |
| PTN 4 Effektiv çatdırılma və icra variantlarını özündə əks etdirən dizayn siyasəti təklifləri yaratmaq və idarəetmə modellərini formalaşdırmaq (tətbiq üçün dizayn kompetesiyaları) |
| PTN 5 Resursların və layihənin idarə edilməsinin düzgün qarışığından istifadə etməklə məsləhətlərin çatdırılmasını təmin etmək (proqramları planlaşdırmaq və idarə etmək kompetesiyaları) |
| PTN 6 Əsaslı, ciddi, şəffaf və cəlbedici məsləhətlər verə bilmək (məsləhət və təsir etmək kompetesiyaları) |
| PTN 7 Məqsədə və auditoriyaya uyğun aydın və inandırıcı mesajlar çatdırmaq (natiqliq və ünsiyyət kompetesiyaları) |

**Fənn üzrə təlim nəticələri (FTN)**

FTN 1 Təşkilatlarda liderlik və öyrənmə (Learning and Leadership in Organizations):

- müxtəlif yetkin öyrənmə (adult learning) və liderlik nəzəriyyələrini və onların praktik tətbiqlərini izah etmək;
- öyrənmə və liderliyin baş verdiyi tarixi və sosial-mədəni kontekstlərini anlamaq;
- şəxsi öyrənmə və liderlik səyahətləri üçün məsuliyyət daşımaq və liderlər kimi özləri haqqında daha çox məlumatlılıq yaratmaq üçün tənqidi düşüncə işlətmək;
- şəxsi öyrənmə fəlsəfəsini (necə, nə vaxt və hansı kontekstlərdə ən yaxşı öyrəndiklərini araşdırmaqla) və liderlik inkişaf etdirmək;
- öyrənmə və liderliyin inkişafına kömək etmək üçün həmkarlar ilə ünsiyyət və əməkdaşlıq etmək bacarıqlarını inkişaf etdirmək.
- öyrənmə və liderlik nəzəriyyələrini Azərbaycan kontekstinə tətbiq etmək

FTN 2 Təhsil siyasətinin dizaynı (Education policy design):

- təhsil sistemlərinə və siyasətin inkişafına təsir edən yerli və milli siyasi qüvvələri müəyyən etmək;
- sübuta (evidence based) əsaslanan siyasətləri inkişaf etdirmək üçün lazım olan araşdırma və məlumatları və tədqiqat sübutlarının yanlış şərh edilməsinin və sui-istifadəsinin qarşısının alınması yollarını tanımaq;
- siyasətin inkişaf proseslərini və siyasətin əslində necə qurulduğunu anlamaq;
- nəzəriyyə və dəlillərə əsaslanaraq təhsil siyasətini təhlil və tənqid etmək;
- “tədqiqat savadlılığını”, xüsusən də sübutlardan istifadə etmək bacarığını tətbiq etmək;
- qərarlar qəbul etmək və sübut olmayan sahələri müəyyən etmək;
- siyasətləri dəstəkləyən və ya etiraz edən sübutlar tapmaq.
- qanunları layihələndirmə, redaktə və şərh etmək üçün lazım olan texniki bacarıqlardan istifadə etmək.

FTN 3 Tədrisin dizaynı və texnologiya (Instructional Design and Technology):

- tədris dizaynı ilə bağlı əsas anlayışlar və terminologiya haqqında anlayış nümayiş etdirmək;
- müəyyən edilmiş ehtiyacı ödəmək üçün seçilmiş problem/mövzu ilə bağlı təlimat parçası tərtib etmək;
- tədris dizaynı üçün nəzəri əsasları və əlaqəli modelləri araşdırmaq və təsvir etmək;
- tələbələrin öyrənmə nəticələrini dəstəkləmək üçün rəqəmsal/medianın xüsusi tətbiqlərinin effektivliyini qiymətləndirmək (U.B)

| |
|---|
| FTN 4 Riyaziyyat və statistika (Math and statistics):<br>• məlumatların təsviri xülasəsini təşkil etmək, hesabat vermək və şərh etmək;<br>• əsas populyasiya parametrləri üçün etimad intervallarını qurmaq və şərh etmək və əldə edilmiş nəticələrə əsasən nəticələr çıxarmaq;<br>• nümunə məlumatlarının verilmiş xarakteristikaları əsasında fərziyyələri bəyan etmək və onları daha sonra sınaqdan keçirmək;<br>• ehtimal nəzəriyyəsinin əsas qaydalarını anlamaq və onu tətbiq etmək;<br>• müvafiq statistik təhlil metodunu düzgün tətbiq etmək üçün diskret təsadüfi kəmiyyəti davamlı təsadüfi dəyişəndən fərqləndirmək;<br>• yuxarıda qeyd olunan məqsədlər üçün MS Excel funksiyalarından və düsturlarından istifadə etmək. |
| FTN 5 Təhsil psixologiyası (Educational psychology):<br>• təhsildə müsbət psixologiyanın rolunu müəyyənləşdirmək;<br>• kurs konsepsiyalarını (yəni, nəzəriyyə, tədqiqat, prinsiplər) Azərbaycanda tədris və öyrənməyə tətbiq etmək;<br>• öyrənmə və tədrisin başa düşülməsində tarixi inkişafları təhlil etmək;<br>• müxtəlif təlim nəzəriyyələrini və onların praktik tətbiqlərini izah etmək;<br>• təhsil sahəsində peşəkar kimi şəxsi inkişafa fikir vermək;<br>• kursdan inkişaf etdirilən dildən istifadə edərək öz fikirlərini həm yazılı, həm də şifahi şəkildə effektiv şəkildə çatdırmaq bacarığını inkişaf etdirmək |
| FTN 6 Təhsil və milli inkişaf (Education and National Development)<br>• inkişaf sözünün mənalarının tarixini və müxtəlif ölkələrin keçdiyi inkişaf yollarını başa düşmək;<br>• inkişafda təhsilin roluna, təhsilin milli inkişafa töhfə vermə yollarına, iqtisadi, sosial və fərdi baxımdan, onun mənfi tərəflərinə anlamaq;<br>• təhsilin institusional inkişafında milli nümunələri görmək;<br>• inkişafın yaxşı və pis dövrlərini, zəif inkişaf və təhsilin rolu anlamaq;<br>• digər ölkələrin dövlət quruculuğu, müxtəliflik və bərabərsizliklə mübarizə üçün təhsildən istifadə etdiyi müsbət və mənfi yollara anlamaq. |

| |
|---|
| FTN 7 Təhsilin hüquqi aspektləri (Legal aspects in education):<br>• Azərbaycan təhsilinin hüquqi əsaslarını başa düşmək;<br>• Hüquqi sənədləri oxumaq və tənqidi qiymətləndirmək bacarığının əldə etmək;<br>• Mövcud və beynəlxalq hüquqi sənədlərə əsaslanaraq hüquqi arqumentasiyaları müzakirə etmək bacarığının əldə etmək;<br>• Təhsil kontekstində hüquqi problemlərin və yaranan problemlərin mümkün həlli yollarının tapılmasında bacarıq və biliklərin nümayiş etdirmək;<br>• Ali təhsilin modelləri/növləri, təhsil müəssisələrinin üzləşdiyi imkanlar və problemlər haqqında ümumi və dərin anlayışa yiyələnmək;<br>• Müstəqil və qrup üzvü kimi strateji məsələləri təhlil etmək və çatdırmaq;<br>• Təhsil menecerləri kimi öz tədqiqat bacarıqlarını təkmilləşdirmək;<br>• Ortaq dəyərlər üçün həmyaşıdları ilə səmərəli işləmək və fəal iştirak nümayiş etdirməklə öz səlahiyyətlərini inkişaf etdirmək; |
| FTN 8 Ali təhsildə idarəetmə (Governance and management in education);<br>• ali təhsilin modelləri/növləri, ali təhsil müəssisələrinin üzləşdiyi imkanlar və problemlər haqqında ümumi və dərin anlayış; və bu qurumları uğurla idarə etmək üçün strategiyalar;<br>• yerli ali təhsil müəssisələrinin bir neçə spesifik imkanları və problemləri və beynəlxalq ali təhsilin inkişafındakı yeni tendensiyaların dərindən başa düşmək;<br>• müstəqil və qrup üzvü kimi strateji məsələləri təhlil etmək və çatdırmaq;<br>• həm yerli, həm də beynəlxalq nöqteyi-nəzərdən ali təhsilin idarə edilməsinin daha yaxşı başa düşmək;<br>• ali təhsilin idarə edilməsində tədqiqat bacarıqlarını təkmilləşdirmək;<br>• ortaq dəyərlər üçün həmyaşıdları ilə səmərəli işləmək bacarıqlarını inkişaf etdirmək və aktiv iştirak nümayiş etdirmək;<br>• effektiv ünsiyyət qurmaq, inandırmaq, güzəştə getmək və ziddiyyətli mövqelər arasında ümumi maraq tapmaq bacarıqlarını genişləndirmək;<br>• problemlərə müxtəlif nöqteyi-nəzərdən baxmağa xidmət edəcək maraqlı tərəflərin maraqlarını müdafiə etmək. |
| FTN 9 Peşakar təcrübə və müəllim qiymətləndirilməsi (Professional Development and Techer Evaluation):<br>• müəllimlərin peşəkarlığının nə olduğunu anlamaq, müəllimlərin peşəkarlığının mövcud və inkişaf edən konsepsiyalarını və onun dinamik təbiətinə təsir edən amilləri araşdırmaq;<br>• müəllimlərin peşəkarlığını müəyyən etmək üçün dövlət siyasətlərində müxtəlif yanaşmaları və bunların müəllimlərin qiymətləndirilməsinə və təşkilat olaraq məktəblərə necə təsir etdiyini müəyyən etmək və izah etmək;<br>• “effektiv müəllim” anlayışını müəyyən və izah etmək, müxtəlif aspektləri və müxtəlif səviyyələrdə effektivliyin sübutlarını təhlil etmək;<br>• təşkilat səviyyəsində müəllimlərin qiymətləndirilməsinin həyata keçirilməsinə vahid yanaşmanı başa düşmək və peşəkar qiymətləndiricilərin və konstruktiv rəylərin xüsusi aspektlərini işləyib hazırlamaq. |

| |
|---|
| FTN 10 Təhsildə neyroelm (Neuroscience in education):<br>• öyrənmə elmləri ilə bağlı əsas anlayışlar və terminologiya haqqında anlayış nümayiş etdirmək;<br>• öyrənmə elmlərinin fənlərarası sahəsindən anlayışları məktəb, universitet və icma kontekstlərinə tətbiq etmək;<br>• emosional və fiziki öyrənmə mühitinə, diqqətə, öyrənmə dizaynına, yaddaşa, yaradıcı təfəkkürə və qiymətləndirməyə fokuslanaraq tədris və öyrənmə üçün beyin tədqiqatının nəticələrini izah etmək. |
| FTN 11 Təhsildə innovasiya və sahibkarlıq (Innovation and entrepreneurship in education):<br>• İnnovasiya və sahibkarlıq anlayışını təsvir etmək;<br>• Təkamülü və yeni bazarların qurulmasını şərtləndirən amilləri müəyyənləşdirə bilmək;<br>• Dəyər yaratma prosesini başa düşmək;<br>• İnnovasiya mənzərəsini və innovasiya növlərini müəyyənləşdirə bilmək;<br>• Dizayn düşüncəsinin əsas prinsipləri və zehniyyəti haqqında bilik nümayiş etdirmək;<br>• Dizayn düşüncəsinin beş fəaliyyət mərhələsini tətbiq etmək;<br>• Biznes modeli qurmaq və biznes plan hazırlamaq;<br>• Sahibkarlıq bacarıqlarını və problemlərini müəyyənləşdirə bilmək |
| FTN 12 Məlumat əsaslı qərarvermə (Data-driven decision making)<br><br>• kəmiyyət məlumatlarının təhlili üçün əsas statistik üsulları anlamaq;<br>• statistik təhlilin nəticələrini necə şərh etməyi və qiymətləndirməyi öyrənmək;<br>• kəmiyyətləşdirilmiş məlumatlarla işləmək və empirik tədqiqatlarda təqdim olunan məlumatları başa düşmək üçün inam və marağa sahib olmaq.<br>• metodoloji cəhətdən əsaslandırılmış məlumatlara əsaslanan qərarlar qəbul etmək üçün məlumatlardan istifadə etmək;<br>• xarici fayllardan xam məlumatların daxil edilməsi və məlumat alt dəstlərinin yaradılması da daxil olmaqla məlumat dəstlərini manipulyasiya etmək;<br>• məlumatların təhlili və Stata statistik proqramından istifadə edərək məlumatların təhlili haqqında anlayış əldə etmək;<br>• verilənlərin birdəyişənli, ikidəyişənli və çoxdəyişənli təhlilini aparmaq;<br>• təhlildən əldə edilən nəticələri həm akademik, həm də sadə dildə təqdim etmək və çatdırmaq. |
| FTN 13 Təhsil statistikası I (Introduction to Educational Statistics)<br><br>• tətbiqi tədqiqat aparmaq üçün lazım olan əsas bacarıqları əldə etmək;<br>• statistik təhlillərin konkret məlumat növləri üçün uyğun olduğunu müəyyən etməyi bacarmaq;<br>• kompüter alətlərindən istifadə etməklə statistik təhlil aparmağı bacarmaq; |

| |
|---|
| • statistik üsulların düzgün və məqsədəuyğun tətbiqi üçün elmi araşdırmaları qiymətləndirə bilmək. |
| FTN 14 Təhsil Statistikası II (Advanced Topics in Educational Statistics)<br>• qrupların müqayisəsi və reqressiya prinsipləri haqqında əsas anlayışı nümayiş etdirməyi bacarmaq;<br>• əhatə olunan müxtəlif statistik yanaşmaların adekvatlığını və fərziyyələrini qiymətləndirə bilmək;<br>• kompyuter alətlərindən istifadə etməklə statistik təhlil aparmağı bacarmaq;<br>• statistik üsulların düzgün və məqsədəuyğun tətbiqi üçün elmi araşdırmaları qiymətləndirə bilmək<br>• daha mürəkkəb metodologiyalar tələb edən vəziyyətləri tanımaq. |
| FTN 15 Beynəlxalq təhsildə proqramlar və siyasətlər (Policies and Programs in International Education):<br>• məktəb sistemlərinin əsas sahələri və məqsədləri haqqında məlumat əldə etmək, faydalar, xərclər və imkanlar baxımından onların mübadilələrini öyrənmək;<br>• hazırlanmış və həyata keçirilən siyasətlərin konteksti, prosesi və məsələsinin qarşılıqlı təsirini başa düşmək üçün digər kontekstlərdə həmin sahələrlə bağlı siyasət dəyişikliyinə dair ölkə tədqiqatlarını təhlil etmək; və siyasət və icra seçimlərinin mübadilələri və nəticələri anlamaq;<br>• müvafiq siyasət sahələrində inteqrasiya etməyə başlayaraq, hər bir əsas siyasət sahəsi üçün məsələ, mübadilə və proses haqqında anlayışlarını Azərbaycana tətbiq etmək;<br>• Azərbaycan kontekstində əhəmiyyət kəsb edən siyasət məsələsi ilə bağlı araşdırma aparmaq, yazmaq və təqdim etmək, buna sübutlar, təhlillər, seçimlər və tövsiyələr, eləcə də həyata keçirilməsi üçün ilkin təkliflər daxil edilir. |
| FTN 16 Təhsil siyasətçiləri üçün tətbiq (Implementation for Education Policymakers):<br>• icra şərtlərinə cavab verən və həyata keçirilməsini effektiv şəkildə dəstəkləyən siyasət tövsiyələrini hazırlamaq;<br>• tətbiqlə bağlı çətinlikləri və məhdudiyyətləri tanımaq və həll edən siyasət təkliflərini tərtib etmək;<br>• ilkin siyasətin hazırlanmasında və həyata keçirilməsində maraqlı tərəfləri cəlb etmək bacarığını artırmaq;<br>• siyasət məsələlərini tərtib etmək və bir çox auditoriya arasında siyasət məqsədləri və həll yollarını strateji şəkildə çatdırmaq üzrə bacarıqlar əldə etmək;<br>• media üzvlərini siyasi söhbətlərə və ünsiyyətə effektiv şəkildə cəlb etmək və köhnə və yeni media vasitələrindən istifadə etmək bacarığını artırmaq. |
| FTN 17 Təşkilatı diaqnoz və inkişaf (Organizational diagnosis and change): |

- təşkilatları açıq sistemlər kimi başa düşmək;
- Azərbaycanın sosial, tarixi və mədəni kontekstində təşkilatların diaqnostikasında müxtəlif üsul və vasitələri tətbiq etmək;
- təşkilatların ehtiyaclarına cavab verəcək dəyişikliklərə müdaxilələr hazırlamaq üçün sübuta əsaslanan həllər seçmək;
- təşkilatlarda dəyişiklikləri asanlaşdıraraq, dəyişiklik agentləri və liderləri kimi özləri haqqında daha çox məlumatlılıq yaratmaq üçün tənqidi düşüncəyə sahib olmaq;
- təşkilatlarda dəyişikliklərin planlaşdırılması və həyata keçirilməsində öz həmkarları ilə ünsiyyət qurmaq və əməkdaşlıq etmək bacarıqlarını inkişaf etdirmək.

FTN 18 Proqramın qiymətləndirilməsi: nəzəriyyə və təcrübə (Introduction to Program Evaluation)

- qiymətləndirmənin kontekstləri, tətbiq oluna biləcək alternativ yanaşmalar, qiymətləndirmədən istifadələr və qiymətləndirmələrin potensial sui-istifadələri haqqında geniş anlayış əldə etmək;
- qiymətləndirmənin bütün səkkiz əsas addımını həyata keçirmək üçün bilik əldə etmək;
- iştirakçılarının qiymətləndirmə bacarıqlarını inkişaf etdirmək vasitəsi və cəmiyyətə xidmət göstərmək vasitəsi kimi birgə real davamlı qiymətləndirmə aparmaq;
- qiymətləndirmənin dizaynı, toplanması və analitik üsulları, müvafiq ədəbiyyat, tapıntılar, tövsiyələr və məhdudiyyətlərlə bağlı şifahi və yazılı şəkildə ünsiyyət qurmaq;
- nəticələrdən ağılla istifadə etmək və ikili və səriştəsiz qiymətləndirmələrdən müdafiə oluna bilməsi üçün qiymətləndirmələrin ağıllı istehlakçısına çevrilmək;
- təhsil, sosial xidmətlər, hökumət və qeyri-kommersiya sektorunda çox yayılmış və israfçı olan düşünülməmiş ixtiralarından qaçmaq üçün qiymətləndirmə nəticələrindən necə istifadə edə biləcəklərini anlamaq.

FTN 19 Keyfiyyətli tədqiqat metodları (Introduction to Qualitative Research)

- keyfiyyətli tədqiqatların aparılması ilə bağlı müxtəlif metodoloji, fəlsəfi, analitik və etik məsələlərə fokuslanmaq;
- keyfiyyətli tədqiqat suallarının işlənib hazırlanması, müvafiq metodologiyanın seçilməsi, məlumatların toplanması ilə bağlı məsələlər, əsas analitik tədqiqatlar daxil olmaqla, daha dərin keyfiyyət sorğu növlərinin konseptuallaşdırılmasına başlamaq üçün zəruri olan əsas bacarıq və bacarıqları inkişaf etdirmək;
- strategiyalar, etibarlılığın qiymətləndirilməsi və nəticələrin təqdim edilməsinə müxtəlif yanaşmalara yiyələnmək;
- keyfiyyət və kəmiyyət yanaşmaları arasındakı əlaqəni müzakirə etmək

FTN 20 Təhsildə müxtəliflik bərabərlik və inkluzivlik (Equity, Diversity and Inclusion inEducation)

- Qlobal kontekstləri və müxtəliflik, bərabərlik və təhsildə inklüzivliyin mürəkkəbliyini dərk etmək;
- Azərbaycan təhsil sisteminin müxtəlifliyə, bərabərliyə və inklüzivliyə yanaşmasını tənqidi təhlil etmək;
- Ən yaxşı beynəlxalq təcrübələri və onların Azərbaycanda potensial tətbiqini araşdırmaq və qiymətləndirmək;
- İnklüziv təhsil sisteminin faydalarını və problemlərini ifadə etmək;
- Təhsildə müxtəlifliyi, bərabərliyi və inklüzivliyi təşviq etmək üçün çərçivələr və ya təşəbbüslər dizayn etmək;
- EDI ilə bağlı siyasətləri, təcrübələri və çıxışları tənqidi şəkildə qiymətləndirmək;
- Müxtəlif kontekstlərdə inklüzivliyi inkişaf etdirmək üçün strategiya və təcrübələr hazırlamaq;
- EDI məsələləri ətrafında məlumatlı dialoqda və qərarların qəbulunda iştirak etmək.